# Bu gün prezident seçkiləri günüdür


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 26 (9481) 7 FEVRAL 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Azərbaycan liderini seçir

## 7 namizəd, 6 milyon 478 min 623 seçici, 6537 seçki məntəqəsi, 90 min 372 müşahidəçi…

**Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda növbəti prezident seçkiləri keçirilir. Ölkə vətəndaşları müstəqillik dövrünün 9-cu prezident seçkisində layiqli namizədə etimad mandatı verərək liderini müəyyənləşdirəcək.**



Azərbaycan xalqı müstəqillik həyatında ilk dəfə olaraq bu seçkilərə - ərazi bütövlüyümüzün tam bərpası fonunda gedir. Bu seçkilərin işğaldan azad edilmiş yurdlarımızda da keçirilməsi isə bir ayrı milli qürurumuzdur. Məhz bu səbəbdən də xalq budəfəki seçkini Zəfər seçkiləri adlandırıb.

Azərbaycan xalqı müstəqillik tarixində ilk dəfə olaraq qalib xalqın qalib vətəndaşı kimi prezident seçkilərində iştirak edəcək. Ən mühüm məqam odur ki, illərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə - yəni Qarabağ və Şərqi Zəngəzurda Zəfər seçkilərinin qüruru yaşanacaq. Əlbəttə ki, suverenliyimizin təmin edilməsi kimi tarixi şəraitdə ilk dəfə məhz prezident seçkiləri keçirməyimizin özünün də böyük rəmzi mənası var. Bu baxımdan, heç şübhəsiz, seçkilərin keçiriləcəyi 7 fevral təqvimi şanlı salnaməmizə tarixi gün kimi yazılacaq.

Prezident seçkisinin əsas məğzi vətəndaşların siyasi alternativlər sırasında inam bəslədikləri namizədə səs verməsi və ən üstün etimadı qazananın qalib elan olunmasıdır. Yəni bu, həm də bir yarışdır. Bu gün xalq 7 namizədin mübarizə apardığı yarışda inandığı, etibar etdiyi, liderlik qabiliyytinə güvəndiyi siyasətçini 7 il müddətinə ölkəyə rəhbər seçəcək.

Prezident seçkilərində 7 namizəd iştirak edir. Bunlar namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Əliyev, namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev və namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyevdir.

→ 5

## Yeni sərəncam 1,1 milyon pensiyaçını əhatə edir

### Ölkə üzrə orta aylıq pensiya 485 manat olacaq

Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2024-cü il tarixli sərəncamı əhalinin həssas təbəqəsini təşkil edən 1,1 milyon pensiyaçının sosial müdafiəsinin gücləndirilməsinə və bu istiqamətdə əldə olunan uğurların davam etdirilməsinə yönəlib. Qeyd edək ki, sosial islahatların yeni mərhələsi 2018-ci ildən sonra başlayıb. Və o zaman dövlət başçısının "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" sözləri ötən beş ildə sosial islahatlarla bağlı imzalanan fərman və sərəncamların ana xəttini təşkil edir. Bu tezisi həm də gələcək proqramların, layihələrin anonsu kimi də qəbul etmək olar.

→ 7

## Fevralın 9-da pensiyaların yeni artımlarla birgə ödənişinə başlanılacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu fevralın 9-da fevral ayı üzrə pensiyaların ödənişinə başlayacaq.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin gün Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə pensiyaların ödənişi həyata keçiriləcək. Pensiyalar 11,2 faiz indeksləşdirmə əsasında artırılmış məbləğlə veriləcək.

Artım bu ilin əvvəlindən tətbiq olunur və yanvar ayının artımı da həmin məbləğin üzərinə əlavə edilərək pensiyaçılara ödəniləcək.

Müvafiq qrafikə uyğun olaraq gələn həftə ərzində respublikamızın digər bölgələri üzrə fevral ayının pensiyalarının, həmçinin güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin bu ay üzrə pensiyalarının da indeksləşdirmə əsasında artırılmış məbləğlə ödənişi nəzərdə tutulub.

## Qarabağda və Şərqi Zəngəzurda keçiriləcək ilk seçkinin sevinci




Fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə Şuşada da hazırlıq işləri yüksək səviyyədə aparılıb. Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binasındakı 105 saylı seçki məntəqəsində 1189 nəfər seçicinin qeydə alındığı bildirilib. 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsinə daxil olan həmin seçki məntəqəsi zəruri texniki vasitə və metodiki vəsaitlərlə təmin olunub, orada seçici siyahıları və məlumat lövhələri asılıb.

1464 seçicinin qeydiyyata alındığı 121 saylı Laçın Seçki Dairəsinin 105 saylı seçki məntəqəsi Mərkəzi Seçki Komissiyası tərəfindən bütün lazımi avadanlıqlarla təmin edilib.

→ 5

## TDT-nin müşahidəçiləri işğaldan azad edilmiş ərazilərdə seçkiləri izləyəcəklər

**Türk Dövlətləri Təşkilatının (TDT) Beynəlxalq Seçki Müşahidə Missiyası (BSMM) fevralın 7-nə təyin edilmiş prezident seçkilərini izləmək üçün Azərbaycanda fəaliyyətə başlayıb.**

AZƏRTAC "secki-2024.az" saytına istinadla xəbər verir ki, TDT-nin baş katibi, səfir Kubanıçbek Ömüralıyevin rəhbərlik etdiyi missiyaya qurumun katibliyinin rəsmiləri, üzv dövlətlərin Mərkəzi Seçki komissiyalarının (MSK) nümayəndələri və TDT ölkələrinin mütəxəssisləri daxildirlər. Nümayəndə heyətinin Azərbaycan Xarici İşlər Nazirliyində və Mərkəzi Seçki Komissiyasında görüşləri nəzərdə tutulub. TDT-nin müşahidəçiləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də seçkiləri izləyəcəklər.

Nümayəndə heyətinin səfərinin müddəti fevralın 8-dək planlaşdırılıb.

## Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün hərtərəfli şərait yaradılıb

### İndi seçim ölkə vətəndaşlarınındır

Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün seçki dairə və məntəqələri səsverməyə hazırdır. Hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi "Təqvim planı"na uyğun aparılıb. Ötən müddət ərzində dairə və məntəqə seçki komissiyaları üzvlərinin maariflәndirilməsi məqsədilə təlim seminarları keçirilib, seçkiqabağı təşviqatın aparılması üçün namizədlərə müvafiq şərait yaradılıb.



→ 5

## İmperializmin köləsi

Ölkəmizdə heç vaxt Qərb təsisatlarının, onların mexanizm və alətlərinin regionda qeyri-adekvat niyyətlər naminə hərəkət etmək imkanı olmayacaq. Ona görə də Qərb media çirkabı, o cümlədən də "Azadlıq" radiosu fevralın 7-nə təyin olunmuş prezident seçkilərindən öncə ölkəmizə qarşı böhtan və dezinformasiya kampaniyasına start verib.

Bu gün müasir jurnalistikanın qızıl qaydalarından biri dəqiqlikdir. Yəni media orqanları yaydıqları məlumatların düzgün olması üçün bütün səylərini göstərməli, öz məqsədli fikir və fərziyyələrini faktiki məlumat kimi təqdim etməkdən çəkinməli, faktları təhrif etməməlidir. Lakin "Azadlıq" radiosunda yayımlanan süjetin ilk saniyələrindən spekulyasiyalar aydın formada seçilir, yersiz və aidiyyətsiz çıxarışlar edilərək saxtakarlığa yol verilir. Azərbaycanın tarixboyu qazandığı ən böyük qələbələr kölgədə saxlanılaraq, ümumiyyətlə, bu istiqamətdə bir kəlmə də olsun danışılmır.

→ 6

## "Azadlıq" Azərbaycanın uğurlarını niyə azaldır?

Azərbaycanın dövlət büdcəsinin gəlirlərinin birbaşa yerli fiskal mənbələr, yəni 100 faiz vergi, gömrük və s. daxili mənbələr hesabına formalaşdığı hamıya məlumdur. Büdcəmizin gəlirlərinin 17 milyard manatı vergi, gömrük rüsumları, özəlləşdirmədən daxilolmalar, büdcədənkənar fondların yığımları, 17,1 milyard manatı Dövlət Neft Fondunun transfertləri hesabına formalaşacaq. Xaricdən bir manat belə qrant, maliyyə institutlarından borc və s. yoxdur. Gürcüstan və Ermənistanın isə dövlət büdcəsinin təxminən 20-25 faizi xarici maliyyə qaynaqları və ya xarici borc hesabına təmin edilir. Bunu təsdiq edən çoxsaylı fakt və rəqəmlər mövcuddur.




→ 6

## Azərbaycan heç nə itirmədi

### AŞPA ölkəmizə qarşı haqsız davranışı ilə özünü gözdən saldı

Müstəqil dövlət ərazisində hər hansı bir seçki keçirirsə, müşahidə üçün kimlərin gələ biləcəyini özü müəyyən edir. Həmçinin ermənilərin Azərbaycan torpaqlarından çıxması gün kimi hamıya aydındır. Onların getməsinin hər saatı kameralara çəkilib, özləri də bildiriblər ki, zorla qovulmayıblar. Təbii ki, bütün bunlar Avropanın mənasız iddiasıdır. Avropanın hər zaman Azərbaycana yuxarıdan aşağı baxdığını vurğulayan deputat deyib ki, Qərbin dostu, qardaşı, hətta özündən də çox sevdiyi erməni olub. Qoy sevsinlər, ancaq Azərbaycanın haqqını danmaq, ölkəmizə böhtanlar atmaq Avropaya yaraşmır və AŞPA-nı nüfuzdan salır. Azərbaycan heç nə itirmir, ən pis, gülünc vəziyyətdə qalanlar AŞPA-da ölkəmizə qarşı böhtan atanlardır.

Azərbaycan etiraz əlaməti olaraq bu qurumda fəaliyyətini dayandırdı, ölkəmiz bu gün də demokratik yolla inkişaf edir, haqqı müdafiə edir. Azərbaycanın ən böyük arzusu və istəyi Qarabağı cənnətə çevirməkdir.

→ 6

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 67** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 625 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert Komissiyası haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.9-cu yarımbənd əlavə edilsin:

"3.1.9. Nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatın təsdiq edilməsi.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 68** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1445 (Cild I) ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bənd üzrə:

1.1.1. 1.4.5-ci yarımbənddən "qeydiyyat və" sözləri çıxarılsın;

1.1.2. 1.4.8-ci yarımbənddə "NKA və" sözləri "NKA-nın zavod nömrəsi və ya seriya nömrəsi, modeli," sözləri ilə, ", VÖEN, obyektin kodu" sözləri "və qeydiyyat nömrəsi, VÖEN, vergi ödəyicisinin adı, təsərrüfat subyektinin (obyektinin) uçot kodu, təsərrüfat subyektinin (obyektinin) adı" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə "modellərinin tətbiqinə icazə verilir" sözləri "modellərindən istifadə olunur" sözləri ilə əvəz edilsin;

1.2.2. 2.9-cu bənd üzrə:

1.2.2.1. "istifadəsi mümkün deyildir" sözləri "istifadəsinə icazə verilmir" sözləri ilə əvəz edilsin;

1.2.2.2. 2.9.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9.9-cu və 2.9.10-cu yarımbəndlər əlavə edilsin:

"2.9.9. nəzarət mexanizmi qurğusu olmadıqda və ya onun məlumat saxlama imkanı tükəndikdə;

2.9.10. Komissiya tərəfindən müəyyən edilmiş NKA ilə bağlı texniki tələblər pozulduqda.";

1.2.3. aşağıdakı məzmunda 2.10-cu bənd əlavə edilsin:

"2.10. Bu Qaydaların 2.9-cu bəndində nəzərdə tutulan hallar aradan qaldırıldıqdan sonra NKA-nın istismarına icazə verilir.";

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.1-ci bənd üzrə:

1.3.1.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Aşağıdakı tələblərə cavab verən hüquqi şəxs operator kimi qeydiyyatdan keçmək üçün müraciət edə bilər:";

1.3.1.2. 3.1.2-ci yarımbənddə "1" rəqəmi "12" rəqəmləri ilə əvəz edilsin;

1.3.1.3. 3.1.3-cü yarımbənddə "zəruri avadanlıqlarla təchiz edilmiş ən azı 1 texniki filial və ya məntəqəsi olmalı" sözləri "Bakı şəhərində və digər regionlarda zəruri avadanlıqlarla təchiz edilmiş ümumi sayı ən azı 6 olan servis-texniki filial və ya məntəqəsi olmalı (5 servis-texniki filial və ya məntəqənin Bakı şəhəri istisna olmaqla Azərbaycan Respublikasının müxtəlif regionlarında olması şərtilə)" sözləri ilə əvəz edilsin;

1.3.1.4. 3.1.4-cü yarımbənddə "sənəd" sözü "sənədlər (o cümlədən gömrük bəyannaməsi)" sözləri ilə əvəz edilsin;

1.3.1.5. 3.1.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.6-3.1.10-cu yarımbəndlər əlavə edilsin:

"3.1.6. fasiləsiz (24/7) fəaliyyət göstərən çağrı mərkəzi olmalı;

3.1.7. proqram təminatlı avadanlıqlara servis-texniki xidmətin göstərilməsi və proqram təminatının işlənib hazırlanması sahəsində 3 (üç) ildən çox təcrübəyə malik olmalı;

3.1.8. son 5 (beş) il ərzində fəaliyyəti olmalı;

3.1.9. ən azı 2000 NKA ilə təmin olunacağı barədə NKA istehsalçısı tərəfindən təqdim olunan sənədi olmalı;

3.1.10. NKA-da istifadəsi nəzərdə tutulan proqram təminatına sahiblik hüququnu və mənbə kodlarının mövcudluğunu təsdiq edən sənədlərə malik olmalı.";

1.3.2. 3.2-ci bənd üzrə:

1.3.2.1. 3.2-ci bəndin ikinci cümləsində "aşağıdakı sənədləri əlavə edir" sözləri "müvafiq olaraq aşağıdakı sənədlər əlavə edilir" sözləri ilə əvəz edilsin;

1.3.2.2. 3.2.1-ci yarımbənddə "3.1.2-ci və 3.1.4-cü" sözləri "3.1.2-ci, 3.1.4-cü, 3.1.9-cu və 3.1.10-cu" sözləri ilə əvəz edilsin;

1.3.3. 3.3-cü bənddə "2 gün" sözləri "5 iş günü" sözləri ilə əvəz edilsin və "nümunəsinin" sözündən sonra ", NKA-nın texniki sənədlərinin əslinin (sənədlərin əsli xarici dildə olduqda onların Azərbaycan dilinə tərcümə edilmiş və notarial qaydada təsdiqlənmiş surəti), NKA-ya qanunsuz müdaxilələrin qarşısını almaq üçün istifadə edəcəyi nömrələnmiş stiker, plomb və möhür nümunələrinin, eləcə də NKA-ya xidmət edən texniki heyətin imza nümunələri və istifadə etdiyi ştampların nümunələrinin" sözləri əlavə edilsin;

1.3.4. 3.4-cü bəndin birinci cümləsində "15"rəqəmləri "60" rəqəmləri ilə, üçüncü cümləsində "15" rəqəmləri"30" rəqəmləri ilə əvəz edilsin;

1.3.5. 3.7-ci bənd üzrə:

1.3.5.1. 3.7.5-ci yarımbəndə "bəndində" sözündən sonra "və Komissiya tərəfindən müəyyən edilmiş nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatda" sözləri əlavə edilsin;

1.3.5.2. aşağıdakı məzmunda 3.7.6-1-ci və 3.7.6-2-ci yarımbəndlər əlavə edilsin:

"3.7.6-1. NKA-nın istehsalçıdan əldə edilməməsi, həmçinin NKA-ların ölkəyə gətirilməsini təsdiq edən sənədin olmaması və ya qanunla müəyyən edilmiş qaydada tərtib edilməməsi aşkar edildikdə;

3.7.6-2. Operator tərəfindən dövlət reyestrinə daxil edilən NKA modelləri son 2 il müddətində vergi orqanında heç bir istifadəçinin adına uçota alınmadıqda;";

1.3.6. 3.9-cu bənddə "3.7.6-cı" sözləri "3.7.6-2-ci" sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 4.8-ci bənd əlavə edilsin:

"4.8. NKA tətbiq edilməklə aparılan əməliyyatlar üzrə vergi orqanının informasiya sistemlərinə daxil edilən və vergi ödəyicisinin kommersiya sirrini təşkil edən məlumatlar və (və ya) vergi sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla açıqlanmamalıdır.";

1.5. 7-ci hissə üzrə:

1.5.1. 7.2.12-ci yarımbənddə "və eyni zamanda" sözləri vergül işarəsi ilə əvəz edilsin;

1.5.2. 7.2.23-cü yarımbənddə "10" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin;

1.6. aşağıdakı məzmunda 8.3.16-1-ci yarımbənd əlavə edilsin:

"8.3.16-1. təsərrüfat subyektlərində (obyektlərində) əhali ilə pul hesablaşmalarında, o cümlədən sifarişlərin idarə edilməsi, müştərilərin ödəməli olduğu yekun məbləğin hesablanmasında istifadə edilən və proqram təminatı və ya əməliyyat sistemi ilə təchiz edilmiş istənilən avadanlıq və qurğuların, o cümlədən istənilən xarakterli çap avadanlıqlarının NKA-ya tam inteqrasiya edilməsini təmin etmək;";

1.7. 9-cu hissə üzrə:

1.7.1. 9.1.1-ci yarımbənddə "müəyyən edir" sözləri "və nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatı müəyyən edir və onların təkmilləşdirilməsi barədə təkliflərə baxır" sözləri ilə əvəz edilsin;

1.7.2. 9.1.3-cü yarımbəndə "sertifikatlaşdırılmasını" sözündən sonra ", həmçinin müdaxilə nəticəsində NKA modellərinin bu Qaydalarla müəyyən edilmiş meyarlara və Komissiyanın müəyyən etdiyi texniki tələblərə uyğun olmadığı aşkar edildiyi hallarda onların təkrar texniki sınağını" sözləri əlavə edilsin;

1.7.3. 9.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.1.6. Operatorun və NKA-nın bu Qaydalar və Komissiya tərəfindən müəyyən edilmiş tələblərə uyğun olub-olmadıqlarının qiymətləndirilməsini həyata keçirir;";

1.8. 10-cu hissə üzrə:

1.8.1. 10.1.7-ci yarımbəndə "sınağını" sözündən sonra ", həmçinin müdaxilə nəticəsində NKA modellərinin bu Qaydalarla müəyyən edilmiş meyarlara və Komissiyanın müəyyən etdiyi texniki tələblərə uyğun olmadığı aşkar edildiyi hallarda onların təkrar texniki sınağını" sözləri əlavə edilsin;

1.8.2. 10.1.9-cu yarımbənddə "NKA-nın" sözləri "operatorların" sözü ilə əvəz edilsin;

1.8.3. aşağıdakı məzmunda 10.1.14-1-ci və 10.1.14-2-ci yarımbəndlər əlavə edilsin:

"10.1.14-1. Komissiya tərəfindən müəyyən edilmiş nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatın yerinə yetirilməsini yoxlayır;

10.1.14-2. Operator qismində qeydiyyatdan keçmiş hüquqi şəxsin Operator kimi fəaliyyətini dövri olaraq təhlil edir və bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğunluğunu yoxlayır;";

1.9. 11.2.1-ci yarımbənddə "15" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin.

2. Bu Qərarla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları"nın 3-cü hissəsində edilmiş dəyişikliklər bu Qərar qüvvəyə mindiyi tarixədək qeydiyyatdan keçmiş operatorlara şamil edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 69** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

## "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 625 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert Komissiyası haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.9-cu yarımbənd əlavə edilsin:

"3.1.9. Nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatın təsdiq edilməsi.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 fevral tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı

Mikro, kiçik və orta sahibkarlığın inkişafının yeni və daha səmərəli dəstəklər hesabına sürətləndirilməsi, qlobal iqtisadiyyatda baş verə biləcək neqativ tendensiyalara qarşı bu sahədə rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin formalaşdırılması məqsədilə aşağıdakı sahələr üzrə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi təmin edilir:

1. Sənaye
2. Kənd təsərrüfatı
3. İnformasiya və rabitə
4. Turizm
5. Tikinti
6. Nəqliyyat
7. Ticarət.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 70** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

## "Dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2011-ci il 15 fevral tarixli 383 nömrəli, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 28 avqust tarixli 955 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyul tarixli 2201 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 72** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1014-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2358 nömrəli Fərmanının 8-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 10-cu hissənin adına və 10.1-ci bəndə "müəssisələrində" sözündən sonra ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində" sözləri əlavə edilsin.

2. 10.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"10.1.1. şəxsin sosial xidmət müəssisələrini, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərini tərk etməsi ilə bağlı həmin müəssisələrin arayışı;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 71** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

## "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2341 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1548 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 yanvar tarixli 32 nömrəli, 15 mart tarixli 86 nömrəli və 8 iyul tarixli 262 nömrəli, 2023-cü il 28 dekabr tarixli 486 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada verilsin *(əlavə olunur, məxfi).*

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## *Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi:* "Seçkilər şəffaf, qanunvericiliyin tələblərinə uyğun qaydada keçiriləcək"



Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 6-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin baş katibi Asəf Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, qonaqlara 7 namizədin mübarizə apardığı seçki prosesi barədə məlumat verən M.Pənahov ölkədə medianın müstəqil olduğunu və prosesi izləmək üçün mətbuat nümayəndələrinə lazımi şəraitin yaradıldığını bildirib. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin qurulduğu və orada seçicilərin öz səslərini sərbəst şəkildə verə bilmələri üçün əlverişli şəraitin yaradıldığı diqqətə çatdırılıb. Səsvermə prosesinin saat 8.00-da başlayacağı, saat 19.00-da başa çatacağı qeyd olunub.

M.Pənahov səsvermə prosesini izləmək üçün 90 min müşahidəçinin qeydiyyatdan keçdiyini, onlardan 790 nəfərin beynəlxalq müşahidəçi olduğunu, üç təşkilatın isə "exit-poll" aparmaq üçün qeydiyyatdan keçdiyini bildirib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin baş katibi Asəf Hacıyev seçkilərin şəffaf, qanunvericiliyin tələblərinə uyğun qaydada keçiriləcəyinə əminliyini ifadə edib. O, eyni zamanda səsvermə prosesini izləmək üçün müşahidəçilərə lazımı şəraitin yaradıldığını da vurğulayıb. A.Hacıyev təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığının yüksək səviyyədə olduğunu da diqqətə çatdırıb.

## TÜRKPA seçkiləri fəal şəkildə müşahidə edəcək



Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 6-da Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə MSK sədri ilk dəfə olaraq seçkilərin azad edilmiş ərazilərimizdə də keçiriləcəyini diqqətə çatdırıb. O qeyd edib ki, seçicilər həmin ərazilərdə yaradılmış 26 məntəqədə səs verəcəklər.

"Biz bu seçkiləri Zəfər seçkiləri adlandırırıq", - deyən M.Pənahov seçkilərdə mübarizə aparacaq namizədlər, həmçinin ölkəmizdə seçicilərin və yaradılmış məntəqələrin sayı, seçicilər və müşahidəçilər üçün yaradılmış şərait barədə məlumat verib.

MSK-nın sədri seçkiləri müşahidə etmək üçün 90 mindən çox müşahidəçinin qeydiyyatdan keçdiyini bildirib.

Türk Dövlətləri Parlament Assambleyasının nümayəndə heyətinin rəhbəri, qurumun Beynəlxalq münasibətlər və hüquq komissiyasının sədri Osman Mesten TÜRKPA-nın seçkiləri fəal şəkildə müşahidə edəcəyini diqqətə çatdırıb. O, həmçinin bildirib ki, TÜRKPA həmişə Azərbaycanın yanındadır və bu, hər zaman belə olacaq.

"İlk dəfə olaraq seçkiləri bütöv Azərbaycan torpaqlarında müşahidə etmək bizim üçün də xüsusi əhəmiyyət daşıyır. Səsvermə günü seçkiləri işğaldan azad olunmuş torpaqlarda müşahidə edəcəyik. Demokratik ölkə olan Azərbaycanda seçkilərin ölkə qanunvericiliyinin tələblərinə uyğun şəkildə keçiriləcəyinə inanırıq. Fevralın 8-də mətbuat konfransı keçirəcəyik və ilkin nəticələrimizi açıqlayacağıq", - deyə Osman Mesten qeyd edib.

## *Viktor SELİVERSTOV:* "Bizim məqsədimiz seçkilərin şəffaf keçirilməsində ölkənizə dəstək olmaqdır"



Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 6-da Belarus və Rusiya İttifaqının Parlament Assambleyasının sədri Viktor Seliverstovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov ölkəmizdə 6,5 milyona qədər seçicinin qeydə alındığını, onların 6537 məntəqədə səs verəcəyini bildirib. O, həmçinin 1000 məntəqədə veb-kameraların quraşdırıldığını və bunun bütün ölkə ərazisini əhatə etdiyini vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərdə ilk dəfə seçkilərin keçiriləcəyini qonaqların diqqətinə çatdıran M.Pənahov qeyd edib ki, seçicilər həmin ərazilərdə yaradılmış 26 məntəqədə səs verəcəklər. Bildirib ki, Xocalı, Xankəndi, Şuşa və digər ərazilərdə səsvermə üçün bütün imkanlar yaradılıb.

Belarus və Rusiya İttifaqının Parlament Assambleyasının sədri Viktor Seliverstov prezident seçkilərinin ciddi və məsuliyyətli proses olduğunu diqqətə çatdıraraq deyib: "Mən Moldovada, Qazaxıstanda, Qırğızıstanda seçkiləri müşahidə etmişəm. Bizim məqsədimiz seçkilərin şəffaf keçirilməsində ölkənizə dəstək olmaqdır", - deyə o qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

## *Can MİN:* "İnanırıq ki, seçkilər ədalətli, şəffaf keçəcək"



Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 6-da Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Minin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov seçkilərin ilk dəfə olaraq bütün Azərbaycan ərazisində keçirildiyini bildirib. O, vaxtilə torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində 1 milyondan çox azərbaycanlının öz dədə-baba yurdundan qovulduğunu, 2020-ci ildə Azərbaycanın ərazilərini işğaldan azad etdiyini və 2023-cü ildə ərazi bütövlüyünü tam təmin etdiyini qonaqların diqqətinə çatdırıb. Bildirib ki, işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsi yaradılıb. MSK-nın sədri seçkilərdə 7 namizədin mübarizə apardığını, təbliğat-təşviqat kampaniyası dövründə onlara həftədə 3 dəfə ödənişsiz efir vaxtı verildiyini diqqətə çatdırıb.

M.Pənahov seçkiləri ümumilikdə 90 mindən çox müşahidəçinin izləyəcəyini vurğulayıb.

Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Min prezident seçkilərinin çox əlamətdar hadisə olduğunu və Azərbaycanda keçiriləcək seçkilərin nəticələrinin ölkənin gələcək inkişafı üçün uğurlu olacağına inandığını qeyd edib. O, Şanxay Əməkdaşlıq Təşkilatının yaxın tərəfdaşlarından olan Azərbaycanın son illərdə bütün sahələr üzrə çox böyük uğurlara imza atdığını bildirib. Qonaq seçkilərin ədalətli, şəffaf keçəcəyinə inandığını vurğulayıb.

"Nizamnaməyə uyğun olaraq bizim missiyamız ümumi prinsiplər, ölkənin daxili işlərinə qarışmamaq, çatışmazlıqların aşkar edilməsi və digər məsələlərdir. Müşahidə missiyamız başa çatdıqdan sonra fevralın 8-də nəticələri açıqlayacağıq. İnanırıq ki, Azərbaycan xalqı öz siyasi iradəsi ilə seçdiyi namizədinə səs verəcək", - deyə ŞƏT-in rəhbəri qeyd edib.

## *Moldova MSK-nın sədri:* "Azərbaycanın təcrübəsi bizim üçün çox vacibdir"



Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərini izləmək üçün Azərbaycana gələn Moldova Mərkəzi Seçki Komissiyasının sədri Anjelika Karamanın rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 6-da Mərkəzi Seçki Komissiyasında (MSK) olub.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla görüşdə qonaqlara ölkəmizdə seçkilərə hazırlıq prosesi, seçicilər və müşahidəçilər üçün yaradılan şərait barədə məlumat verilib.

M.Pənahov Azərbaycanın Moldova ilə münasibətlərə önəm verdiyini bildirib. Fevralın 7-də keçiriləcək seçkilərin ölkəmizin tarixində Zəfər seçkiləri kimi qalacağını vurğulayan MSK sədri işğalla əlaqədar olaraq 30 ildən çox ölkəmizin müxtəlif bölgələrində səs verən soydaşlarımızın budəfəki seçkilərə nəhayət, öz doğma yurd yerlərində gedəcəklərini əlamətdar hadisə kimi qiymətləndirib. O, həm işğaldan azad edilmiş torpaqlarda, həm də bütün ölkə ərazisində seçicilərin rahat səs verə bilmələri üçün bütün şəraitin yaradıldığını diqqətə çatdırıb.

Moldova Mərkəzi Seçki Komissiyasının sədri Anjelika Karaman Azərbaycanda seçkiləri müşahidə edəcəklərindən məmnun olduqlarını bildirib.

Ölkəsi ilə bağlı fikirlərini bölüşən A.Karaman deyib: "Azərbaycanın təcrübəsi bizim üçün çox vacibdir. Moldova da nə vaxtsa bütün ərazisində seçkiləri keçirmək arzusundadır. Biz bunu çox istəyirik".

A.Karaman Azərbaycanda seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçiriləcəyindən əminliyini ifadə edib.

## Türk Dövlətləri Təşkilatının nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasında olub



Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün Azərbaycanda səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevin rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 6-da Mərkəzi Seçki Komissiyasında (MSK) olub.

AZƏRTAC xəbər verir ki, MSK-nın sədri Məzahir Pənahov seçkilərin Azərbaycan üçün ikiqat əlamətdar olduğunu bildirib. MSK sədri TDT-nin üzvü olan Azərbaycan xalqının öz soykökünə, tarixinə, torpağına bağlı olduğunu qeyd edərək budəfəki seçkilərin işğaldan azad edilmiş Xankəndi, Laçın, Şuşa və digər ərazilərdə də keçirilməsinin xalqımız və dövlətimiz üçün önəmini xüsusi vurğulayıb. O, həmin ərazilərdəki seçki məntəqələrində səsvermə prosesi üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

Nümayəndə heyətinə seçkilərlə bağlı ətraflı məlumat verən MSK sədri yerli və beynəlxalq müşahidəçilərin sayı, yerli və xarici medianın müşahidə aparması üçün yaradılan imkandan danışıb. Bildirib ki, yerli medianın seçkilərin işıqlandırılması üçün akkreditasiyadan keçməsinə ehtiyac yoxdur, amma beynəlxalq media subyektləri artıq qeydiyyatdan keçiblər. Prezident seçkilərində "exit-poll" keçirmək üçün üç təşkilat qeydə alınıb, onlardan biri də ABŞ-nin "Oracle Advisory Group" təşkilatıdır. Səsvermə prosesini müşahidə etmək üçün Azərbaycana dəvət olunduqlarına görə nümayəndə heyəti adından təşəkkürünü bildirən Kubanıçbek Ömüralıyev seçkilərin ölkəmizin bütün ərazisində keçirilməsinin qürurverici olduğunu vurğulayıb. O, əminliklə bildirib ki, qardaş Azərbaycan xalqı öz siyasi iradəsi ilə ən yaxşı namizədə səs verəcək.

Nümayəndə heyətinin tərkibində müxtəlif sahələrdə çalışan peşəkarların yer aldığını diqqətə çatdıran Kubanıçbek Ömüralıyev deyib: "İnanırıq və əminik ki, Azərbaycanda seçkilər ən yüksək səviyyədə keçiriləcək".

Gərgin və məsuliyyətli işində MSK rəhbərliyinə uğurlar arzulayan TDT-nin baş katibi seçkilərin Azərbaycan xalqı və dövlətinin inkişafı üçün uğur gətirəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Bu gün prezident seçkiləri günüdür

## YAP Mərkəzi Aparatında "Seçki Müşahidə və Təhlil Qrupu" Koalisiyasının nümayəndələri ilə görüş keçirilib



Fevralın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin monitorinqinin həyata keçirilməsi məqsədilə yaradılmış "Seçki Müşahidə və Təhlil Qrupu" Koalisiyasının nümayəndələri ilə görüşüb.

Partiyadan AZƏRTAC-a bildiriblər ki, görüşdə koalisiyanın nümayəndələri - "Vətəndaş Cəmiyyəti Uğrunda Mərkəz" İctimai Birliyinin sədri Rafiq İsmayılov, "Neftçilərin Hüquqlarının Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Mirvari Qəhrəmanlı və "Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi" İctimai Birliyinin nümayəndəsi Taleh Mansurov "Seçki Müşahidə və Təhlil Qrupu" Koalisiyasının fəaliyyəti haqqında məlumat veriblər. Koalisiyanın seçki prosesi ilə əlaqədar aralıq hesabatının yayıldığı vurğulanıb və yekun hesabat tərtib olunana qədər nəzərdə tutulan tədbirlər haqqında məlumat diqqətə çatdırılıb.

Tahir Budaqov Azərbaycanda azad, şəffaf və demokratik seçkilərin keçirilməsi üçün bütün imkanların yaradıldığını diqqətə çatdırıb. Seçki kampaniyasının Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq yüksək səviyyədə həyata keçirildiyini bildirən Tahir Budaqov prezident seçkilərinin Azərbaycanın demokratik inkişafının növbəti nümunəsi olacağına əminliyini ifadə edərək vətəndaş cəmiyyətinin bu prosesdə fəal iştirakının önəmini diqqətə çatdırıb.

Sonra koalisiya nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

## Jakip ASANOV: "Azərbaycanın seçki qanunvericiliyi beynəlxalq standartlara uyğundur"



Fevralın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) beynəlxalq müşahidəçilər qrupunun koordinatoru, Qazaxıstan Parlamenti Senatının sədr müavini Jakip Asanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, Tahir Budaqov MDB PA müşahidə missiyasında təmsil olunan ölkələrin bir-biri ilə ənənəvi dostluq münasibətlərinin olduğunu və xalqlarının ortaq mənəvi dəyərləri bölüşdüyünü bildirib. O qeyd edib ki, əsasən parlament üzvlərindən təşkil olunan MDB PA müşahidə missiyalarının fəaliyyəti təşkilat üzvləri arasında seçki təcrübəsinin mübadiləsi baxımından mühüm önəm daşıyır.

Tahir Budaqov Azərbaycanın demokratik seçki təcrübəsinə malik olduğunu vurğulayaraq, növbədənkənar prezident seçkilərinə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraq göstərildiyini diqqətə çatdırıb. Seçkilərə hazırlığın yüksək səviyyədə olduğunu bildirən YAP Sədrinin müavini yerli və beynəlxalq müşahidəçilərə seçki prosesinin bütün mərhələlərini izləmək üçün zəruri şəraitin yaradıldığını qeyd edib.

Nümayəndə heyətinin rəhbəri Jakip Asanov MDB PA müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib. O, seçki prosesinin uzunmüddətli müşahidəsi çərçivəsində Azərbaycanın bir sıra MDB ölkələrindəki səfirlikləri və konsulluqlarında olduqlarını, ölkə ərazisində Mərkəzi Seçki Komissiyası və digər dövlət qurumlarının nümayəndələri, habelə prezidentliyə namizədlər və onların seçki qərargahlarının üzvləri ilə görüşdüklərini söyləyib. Azərbaycanın seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğun olduğunu, seçki məntəqələrində maddi-texniki cəhətdən seçkiyə hazırlığın yaxşı təşkil edildiyini, həmçinin namizədlərin seçkilərdə iştirakı üçün yaradılmış şəraiti müsbət qiymətləndirdiklərini vurğulayıb.

Sonra Tahir Budaqov nümayəndə heyətinin üzvlərinin suallarını cavablandırıb.

## YAP Sədrinin müavini Rusiya Dövlət Dumasının müşahidə missiyasının rəhbəri ilə görüşüb



Fevralın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının müşahidə missiyasının rəhbəri, Dumanın Müstəqil Dövlətlər Birliyi, Avrasiya inteqrasiyası və həmvətənlər ilə əlaqələr üzrə komitəsi sədrinin müavini Artyom Turovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Partiyadan AZƏRTAC-a bildiriblər ki, görüşdə Tahir Budaqov ölkəmizdəki şəffaf və demokratik seçki mühitindən bəhs edib, bütün namizədlərə bərabər imkanların yaradıldığını vurğulayıb. YAP Sədrinin müavini partiyanın seçkilərə hazırlıq işləri barədə məlumat verib, bununla bağlı YAP-ın Tədbirlər Planında nəzərdə tutulan əsas hərəkət və tədbirlərin indiyədək vaxtında və tam şəkildə icra olunduğunu bildirib.

Nümayəndə heyətinin rəhbəri A.Turov qeyd edib ki, missiyanın apardığı ilkin müşahidələr seçkilərə hazırlıq işlərinin sistemli şəkildə həyata keçirildiyini göstərir. O, seçki qanunvericiliyinə uyğun olaraq bütün namizədlər üçün bərabər imkanların və ədalətli rəqabət mühitinin yaradılmasının təqdirəlayiq olduğunu bildirib. Sonda Tahir Budaqov Rusiya Dövlət Dumasının müşahidə missiyasının fəaliyyətinin seçkilərlə əlaqədar təcrübə mübadiləsi baxımından əhəmiyyətini qeyd edərək missiyanın işinə uğurlar arzulayıb.

## Azərbaycan ilə TDT arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər müzakirə edilib

Fevralın 6-da xarici işlər naziri Ceyhun Bayramov növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin müşahidəsi ilə bağlı ölkəmizdə səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə TDT arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, ölkəmizdə keçiriləcək prezident seçkilərinə hazırlıq işləri müzakirə olunub.

Ölkəmizin TDT çərçivəsində müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, bağlantılar, mədəni, humanitar və s. sahələr üzrə əməkdaşlığın genişləndirilməsi, təşkilatın gücləndirilməsi istiqamətində aktiv fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Bu istiqamətdə son dövrlərdə üzv ölkələr arasında təmasların artmasının mövcud əməkdaşlıq imkanlarından səmərəli istifadə üçün şərait yaratdığı bildirilib.

Bu il təşkilatın ölkəmiz daxil olmaqla, üzv dövlətlərdə keçiriləcək yüksəksəviyyəli tədbirlərinin TDT-nin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Ceyhun Bayramov müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunduğu dövrə təsadüf edən növbədənkənar prezident seçkilərinin ölkəmiz üçün rəmzi əhəmiyyət daşıdığını vurğulayıb. Seçki prosesinin təşkili ilə bağlı XİN tərəfindən görülmüş hazırlıq işlərindən bəhs edən nazir prosesin şəffaflığının müşahidəsi baxımından regional və beynəlxalq təşkilatların, o cümlədən TDT-nin müşahidəçi qismində fəal iştirakının təqdirəlayiq olduğunu bildirib.

Baş katib Kubanıçbek Ömüralıyev ölkəmizə növbəti səfərinin tarixi növbədənkənar prezident seçkiləri dövrünə təsadüf etməsindən məmnunluq duyduğunu, keçiriləcək seçkilərin nəticələrinin Azərbaycanın inkişaf və rifahına xidmət edəcəyinə əmin olduğunu bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ceyhun BAYRAMOV: "TÜRKPA türk dövlətləri arasında əlaqələrin parlamentlər səviyyəsində inkişafı baxımından vacib platformadır"



Fevralın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) müşahidə missiyasının rəhbəri Osman Mesten və nümayəndə heyətinin digər üzvləri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə TÜRKPA çərçivəsində əməkdaşlıq məsələləri, habelə növbədənkənar prezident seçkiləri ilə bağlı hazırlıq işləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov TÜRKPA-nın türk dövlətləri arasında mövcud qardaşlıq və dostluq əlaqələrinin parlamentlər səviyyəsində inkişafı baxımından vacib platforma olduğunu diqqətə çatdıraraq dövlətlərimiz arasında siyasi, iqtisadi, sosial, mədəni, humanitar və digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsində parlament diplomatiyasının əhəmiyyətini vurğulayıb. Türk dövlətləri arasında müxtəlif səviyyələrdə təmasların artırılmasının regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa təkan verdiyi diqqətə çatdırılıb.

Növbədənkənar prezident seçkiləri ilə əlaqədar hazırlıq işləri, o cümlədən Xarici İşlər Nazirliyi tərəfindən görülən tədbirlər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir suverenliyimizin bərpasından sonra ilk dəfə bütün ərazilərimizdə keçirilən bu seçki prosesinin tarixi əhəmiyyət kəsb etdiyini bildirib. İşğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin təsis olunduğu diqqətə çatdırılıb.

Missiya rəhbəri Osman Mesten qardaş Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində qazandığı Zəfərdən, habelə tam suverenliyinin bərpasından sonra ilk dəfə keçirilən prezident seçkilərini müşahidə etməkdən məmnunluq duyduğunu diqqətə çatdırıb. Bu seçkilərin nəticələrinin Azərbaycanın bundan sonrakı inkişafında mühüm rola malik olacağına dair əminlik ifadə olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Azərbaycan ilə MDB arasında əməkdaşlıq gündəliyinə dair fikir mübadiləsi aparılıb



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov fevralın 6-da Müstəqil Dövlət Birliyinin (MDB) Parlamentlərarası Assambleya Şurasının baş katibi Dmitri Kobitski ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə MDB arasında əməkdaşlıq gündəliyi, habelə növbədənkənar prezident seçkilərindən irəli gələn məsələlər müzakirə olunub.

MDB məkanında qanunvericilik orqanları arasında təmasların qurulmasına şərait yaradan platforma kimi MDB Parlamentlərarası Assambleyanın əhəmiyyəti vurğulanıb.

Azərbaycanın üzv ölkələr arasında siyasi, iqtisadi, mədəni, elmi, humanitar və s. sahələr üzrə əməkdaşlığın inkişafında mühüm rolu olan dialoq platforması kimi MDB-yə əhəmiyyət verdiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov fevralın 7-də 30 illik işğaldan sonra ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində növbədənkənar prezident seçkilərinin keçiriləcəyini, torpaqlarından didərgin düşmüş vətəndaşlarımızın işğaldan azad olunmuş ərazilərimizdə səsvermədə iştirak edəcəklərini bildirib. Habelə xarici ölkələrdəki vətəndaşlarımızın seçki hüququnun təmin olunması istiqamətində Xarici İşlər Nazirliyi tərəfindən müvafiq tədbirlərin görüldüyü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizdə müvafiq seçki məntəqələrinin yaradıldığı diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Sergey LEBEDEV: "Azərbaycanda keçiriləcək seçkilərə hazırlıq işlərinin peşəkarlıqla aparılması təqdirəlayiqdir"



Fevralın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov növbədənkənar prezident seçkilərinin müşahidəsi məqsədilə ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) baş katibi Sergey Lebedev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə MDB çərçivəsində gündəlikdə duran aktual məsələlər, əməkdaşlıq perspektivləri, habelə növbədənkənar prezident seçkilərinin müşahidəsindən irəli gələn məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın MDB ölkələri ilə ikitərəfli, o cümlədən təşkilat çərçivəsində çoxtərəfli əməkdaşlığı uğurla davam etdirdiyini bildirərək, Birliyə üzvlüyümüzün sosial, mədəni, humanitar sahələrdə münasibətlərin daha da inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı görülən işlər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov sözügedən seçkilərin 30 ildən artıq müddətdən sonra işğaldan azad edilmiş ərazilərimizdə ilk dəfə keçirilməsi ilə əlamətdar olduğunu vurğulayıb.

Seçkilərin təşkili ilə bağlı bütün hazırlıq işlərinin görüldüyü, eyni zamanda beynəlxalq müşahidəçilərin, habelə xarici media nümayəndələrinin seçkiləri müşahidə etmələri üçün lazımi tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov həmçinin ölkə xaricində yaşayan, habelə uzunmüddətli xarici ezamiyyətdə olan vətəndaşlarımızın seçki hüquqlarını həyata keçirməsi məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti işlərin görüldüyünü, 37 ölkədə 49 seçki məntəqəsinin yaradıldığını bildirib.

Baş katib Sergey Lebedev Azərbaycanda keçiriləcək seçkilərin müşahidəsində iştirakla bağlı dəvətə görə təşəkkürünü bildirib, hazırlıq işlərinin peşəkarlıqla aparılmasının təqdirəlayiq olduğunu deyib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Fevralın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün ölkəmizdə səfərdə olan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Can Minlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlığın perspektivləri, habelə növbədənkənar prezident seçkilərinə dair məsələlər müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın ŞƏT üzvləri ilə mövcud əməkdaşlığının təşkilat çərçivəsində ölkəmizin fəallığını şərtləndirdiyini, habelə qarşılıqlı dialoqa töhfə verdiyini bildirib. Ölkəmizin ŞƏT-in dialoq üzrə tərəfdaşı kimi regional təhlükəsizlik məsələləri, o cümlədən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri kimi kommunikasiya layihələrinin irəlilədilməsi üzrə təşkilatla faydalı əməkdaşlıq etdiyi bildirilib.

Azərbaycanın Avrasiya məkanında xüsusi mövqe və çəkisi olan ŞƏT ilə əməkdaşlığa əhəmiyyət verdiyi, bu istiqamətdə iqtisadiyyat, ticarət, energetika, investisiyalar, humanitar, turizm və digər sahələr üzrə mövcud əməkdaşlıq perspektivlərinin dəyərləndirilməsinin vacibliyi qeyd olunub. Bununla yanaşı, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirin Azərbaycanda keçiriləcəyini nəzərə alaraq ekologiya sahəsində geniş əməkdaşlıq imkanlarının olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov növbədənkənar prezident seçkilərinin 30 ilə yaxın işğaldan sonra ilk dəfə bütün ərazilərimizdə keçirilməsinin, habelə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri nəticəsində öz evlərinə qayıdan vətəndaşlarımızın ilk dəfə doğma torpaqlarında seçki hüquqlarını həyata keçirməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Qarşı tərəf həmçinin hazırda xarici ölkələrdə yaşayan və fəaliyyət göstərən vətəndaşlarımız üçün seçki prosesinin təşkili ilə əlaqədar Xarici İşlər Nazirliyi tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlandırılıb.

Baş katib Can Min növbədənkənar prezident seçkilərinin müşahidəsi ilə əlaqədar dəvətə görə təşəkkür edərək seçkilərin təşkilində ölkəmizə uğurlar arzulayıb. Baş katib seçkilərə hazırlıq prosesinin yüksək səviyyədə təşkilinin böyük məmnunluq doğurduğunu vurğulayıb.

Görüş zamanı eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bu gün prezident seçkiləri günüdür

## Azərbaycan liderini seçir

### 7 namizəd, 6 milyon 478 min 623 seçici, 6537 seçki məntəqəsi, 90 min 372 müşahidəçi…



*Əvvəli 1-ci səh.*

Seçki Məcəlləsinə müvafiq olaraq, bu gün bütün ölkə üzrə səsvermə saat 08:00-dan başlayıb 19:00-da başa çatacaq. Prosedura uyğun olaraq, məntəqə seçki komissiyasının üzvləri səsvermə başlananadək hazırlıq işləri aparır və saat 7:50-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsinin açıldığını elan edir. Bundan sonra o, seçki komissiyasının üzvlərinə, müşahidəçilərə və orada olan digər seçki subyektlərinə boş seçki qutularını göstərib kilidləyir və saat 08:00-da səsvermənin başlandığını bəyan edir.

Seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün kameraların quraşdırılması, tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi mütəmadi qaydada diqqət mərkəzində saxlanılır. İnternet istifadəçiləri həm ölkə daxilindən, həm də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malikdirlər. Onu da deyək ki, bu təcrübə Azərbaycandan sonra digər ölkələrdə də tətbiq edilməyə başlanıb.

MSK-nın seçki siyahısında 6 milyon 478 min 623 nəfər var. Seçicilər 6537 məntəqədə səs verəcəklər. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda 26 seçki məntəqəsi yaradılıb. 22 mindən artıq seçicimiz işğaldan azad olunmuş ərazilərdə olan məntəqələrin seçici siyahılarına daxil edilib.

Seçkilərin keçirilməsində əsas tələblərdən biri şəffaflığın təmin edilməsi məsələsidir. Azərbaycanda bu baxımdan həmişə olduğu kimi, indi də heç bir problem yoxdur. Seçkiləri izləmək üçün ümumilikdə 90 372 müşahidəçi qeydə alınıb. 790 nəfəri beynəlxalq müşahidəçilərdir, onlar 72 beynəlxalq təşkilatı təmsil edirlər. Onların hamısı mötəbər təşkilatlardandır. 190 xarici media qurumunun 200-dən artıq nümayəndəsi müşahidəçi kimi iştirak edəcək. Seçkiləri 109 beynəlxalq media qurumundan 216 jurnalist izləyib işıqlandıracaq.

Prezident seçkilərini 14 siyasi partiyanın 50 mindən çox müşahidəçisi izləyəcək. Siyasi partiyaların seçkilərdə iştirakı həmişə bütün dünyada maraq doğurur. Seçkilərdə 7 namizəddən 5-i siyasi partiyanı təmsil edir. 14 siyasi partiya isə namizədi olmasa da, müşahidəçi kimi tərəfdarlarını prosesə cəlb edib. 90 mindən çox müşahidəçinin 50 mindən çoxu siyasi partiyanı təmsil edir.

Görmə qabiliyyəti olmayanlar, eləcə də əlillik arabasından istifadə edən seçicilər üçün 2000-dən çox məntəqədə şərait yaradılıb.

Ümumiyyətlə, seçkilərdə ilk dəfə səs verənlərin sayı 407 mindən yuxarıdır.

Prezident seçkiləri günü 228 şəxsin 18 yaşı tamam olur və onlar məhz seçki günü səsvermə hüququ əldə edəcəklər.

Onu da vurğulayaq ki, seçkiləri tam tərkibdə müşahidə edəcək ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyası artıq bir aydan çoxdur Azərbaycandadır. Onların nümayəndə heyəti ümumilikdə 266 nəfərdən ibarətdir.

Bundan əlavə, ATƏT-in Parlament Assambleyasının 96 müşahidəçisi seçkiləri izləyəcək.

Ölkəmizdə keçirilən prezident seçkiləri ilə əlaqədar 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrdə 23 minə yaxın seçici siyahıya alınıb. Səsvermə günü öz məntəqəsində olmayan şəxs qeydiyyatdan çıxma sənədi ilə istədiyi yerdə səs verə biləcək. Bu həm xaricdə, həm də ölkədə yaşayan seçicilərə aiddir.

Bir sözlə, gerçəkləşdirilən çoxsaylı irimiqyaslı layihələr onu deməyə əsas verir ki, seçkilər tam demokratik, ədalətli və şəffaf keçiriləcək. Seçicilər onlar üçün yaradılmış bu qədər geniş imkanlardan səmərəli istifadə edərək azad və sərbəst şəkildə öz konstitusion hüquqlarını reallaşdıracaqlar. Zəfər seçkisi milli və siyasi həmrəyliyin təntənəsi kimi tarixə yazılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün hərtərəfli şərait yaradılıb

### İndi seçim ölkə vətəndaşlarınındır

**Gözlədiyimiz əlamətdar gün gəlib çatdı. Bu gün ölkəmizdə növbədənkənar prezident seçkiləri keçirilir. Bu seçkiyə Zəfər seçkisi də deyirlər. Çünki Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində, 19-20 sentyabr 2023-cü ildə antiterror əməliyyatında düşmən üzərində Zəfər çaldı, Qarabağı, eləcə də 30 ilə yaxın erməni işğalında qalmış ərazilərimizi qəsbkarlardan azad etdi. Bu gün böyük qürur və iftixarla iştirak etdiyimiz seçki Qarabağda qazanılan Zəfərdən sonra keçirilən ilk prezident seçkiləridir.**

Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün seçki dairə və məntəqələri səsverməyə hazırdır. Hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi "Təqvim planı"na uyğun aparılıb. Ötən müddət ərzində dairə və məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi məqsədilə təlim seminarları keçirilib, seçkiqabağı təşviqatın aparılması üçün namizədlərə müvafiq şərait yaradılıb. Səsvermənin şəffaf və demokratik keçirilməsi üçün bütün seçki məntəqələri lazımi əyani vasitələr, metodiki tövsiyələr, seçki kabinələri və qutuları, plakatlar, rabitə ilə təmin edilib, səsvermə otaqlarında seçici siyahıları, bülletenlərin doldurulma qaydası vurulub. Səsvermədə iştirak edəcək seçicilərin siyahıları dəqiqləşdirilib.

Bir sözlə, Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımlar atılıb, seçki prosesinin iştirakçılarına hərtərəfli şərait və geniş imkanlar yaradılıb. Çoxsaylı yerli və beynəlxalq müşahidəçilər, media mənsubları və müxtəlif aşkarlıq institutları seçki kampaniyasında heç bir maneə olmadan, azad və sərbəst şəkildə iştirak edirlər. Seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərinin səmərəli şəkildə tətbiq olunması səsvermәni gün ərzində fasiləsiz izləməyə, dolğun və əhatəli müşahidə aparmağa və beləliklə, şəffaflığın böyük miqyasda gerçəkləşdirilməsinə geniş imkanlar yaradır. Fərqli aşkarlıq institutlarının seçki prosesində rahat və asanlıqla iştirakı, sərbəst fəaliyyətləri üçün yaradılan geniş imkanlar baxımından Azərbaycan dünyaya nümunə sayıla bilər.

Respublikamızın ictimai-siyasi həyatında olduqca mühüm əhəmiyyət kəsb edən, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlar da daxil olmaqla, hər bir bölgədə keçirilən prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin edilməsinə xüsusi diqqət yetirilib. Azərbaycanın seçki təcrübəsində artıq uzun illərdir ki, uğurla reallaşdırılan və səsvermə günü seçki məntəqələrində prosesləri internet üzərindən hamı üçün açıq platformada canlı nümayiş etdirən, seçki məntəqələrinə getmədən də gün ərzində əvvəldən-axıradək fasiləsiz müşahidə imkanı verən veb-kameralardan istifadə təcrübəsi prezident seçkilərində də davam etdirilir. Hazırda bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Səsvermə günü seçki məntəqələrində proseslərin birbaşa izlənilməsi, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin olunması üçün veb-kameraların tənzimlənməsi və digər texniki parametrlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılaraq daha da təkmilləşdirilib. Belə ki, veb-kameraların müşahidə sistemi tam yenilənərək yeni nəsil müşahidə sistemi tətbiq olunub və əvvəlki illərdəkindən 2 dəfə daha yüksək görüntü effektinə, optimal şəbəkə utilizasiyasına, avtofokuslama və s. kimi mühüm xüsusiyyətlərə malik kameralar quraşdırılıb. Həm müşahidə sisteminin avadanlıq və proqram təminatı baxımından komponentləri, həm də səsvermə günü seçki məntəqələrindəki prosesləri canlı izləmək üçün nəzərdə tutulan internet səhifəsi tam şəkildə yenilənib.

Quraşdırılımış veb-kameralar istər ölkə daxilində, istərsə də xaricdəki internet istifadəçilərinə Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini fasiləsiz müşahidə imkanları yaradacaq.

Bu gün ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri beynəlxalq aləmdə də böyük maraq yaradıb. Cənubi Qafqazın lider dövlətinə çevrilmiş Azərbaycanla əməkdaşlıq etmək, onun təcrübəsini öyrənmək istəyən dövlətlərin sayı gündən-günə artır. Bunun nəticəsidir ki, bu gün ölkəmizdə keçirilən seçkiləri izləmək üçün 790 beynəlxalq müşahidəçi qeydiyyatdan keçib.

Növbədənkənar prezident seçkilərində müşahidə aparmaq üçün İslam Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti, Müstəqil Dövlətlər Birliyinin baş katibi Sergey Lebedev, Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri Giorgi Kalandarişvili, Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Nurlan Abdirov, Moldova Mərkəzi Seçki Komissiyasının sədri Anjelika Karaman, Maldiv və Ukrayna Mərkəzi Seçki komissiyalarının nümayəndələri və başqaları Azərbaycandadırlar. Onlar mətbuata verdikləri açıqlamalarında dairə və məntəqələrdə seçkilərin demokratik və şəffaf keçirilməsi üçün hərtərəfli şərait yaradıldığını bildiriblər.

Böyük əminliklə demək olar ki, xalqımız bu gün keçiriləcək növbədənkənar prezident seçkilərində azad, ədalətli, şəffaf və obyektiv seçki keçirmə ənənəsinə sadiqliyini bir daha dünyaya göstərəcək. Azərbaycan xalqı ölkəmizin taleyini həll edəcək bu seçkiyə Zəfər ovqatıyla gəlib. Söz yox ki, vətəndaşlarımız ən yaxşı namizədə səs verəcəklər. Uğurlar olsun, Azərbaycan xalqı!

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Qarabağda və Şərqi Zəngəzurda keçiriləcək ilk seçkinin sevinci

İşğaldan azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda ilk dəfə seçki keçirilir. Böyük qayıdış proqramı çərçivəsində həyata keçirilən işlər nəticəsində dədə-baba məskənlərinə dönmüş, yenidən həmin yerlərdə ev-eşik sahibi olmuş keçmiş məcburi köçkünlərin sevincinin həddi-hüdudu yoxdur. Çünki otuz il həsrətini çəkdikləri yurdlarında qalib ölkələrinin dövlət başçısını seçmək üçün səs verəcəklər.

Qarabağ və Şərqi Zəngəzurda yaradılmış seçki məntəqələrindən gələn məlumatlara əsasən, deyə bilərik ki, işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan soydaşlarımızın seçki hüquqlarının həyata keçirilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün şərait yaradılmışdır. Doğma yurdlarına qayıtmış, həmçinin Qarabağ və Şərqi Zəngəzur ərazilərində bərpa-quruculuq işlərinə cəlb olunmuş şəxslərin seçki hüququnun təmini məqsədilə 26 seçki məntəqəsi yaradılmışdır.

121 saylı Laçın seçki dairəsinin Zabux kəndində yeni yaradılan 108 saylı seçki məntəqəsi bütün ləvazimatlarla təchiz edilib, səsvermə kabinəsi quraşdırılıb, məntəqə üzvləri, müşahidəçilər üçün yerlər ayrılıb. Səsvermə otağına səsvermə qutuları, stol, yazı ləvazimatı və gizli səsvermə üçün lazım olan digər zəruri əşyalar qoyulub. Seçki-2024.az saytının məlumatına görə, seçki günü səhhətində problem olduğuna görə məntəqəyə gələ bilməyən seçicilərin səsverməsini təşkil etmək üçün səyyar seçki qutusu ayrılıb. Məntəqədəki lövhədə seçicilərin siyahısı vurulub.

Fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə Şuşada da hazırlıq işləri yüksək səviyyədə aparılıb. Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binasındakı 105 saylı seçki məntəqəsində 1189 nəfər seçicinin qeydə alındığı bildirilib. 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsinə daxil olan həmin seçki məntəqəsi zəruri texniki vasitə və metodiki vəsaitlərlə təmin olunub, orada seçici siyahıları və məlumat lövhələri asılıb.

1464 seçicinin qeydiyyata alındığı 121 saylı Laçın seçki dairəsinin 105 saylı seçki məntəqəsi Mərkəzi Seçki Komissiyası tərəfindən bütün lazımi avadanlıqlarla təmin edilib.

Füzuli şəhərində 527 ailə olmaqla, 1969 nəfər daimi məskunlaşıb. Sakinlərdən səsvermə hüququ olan 1292 nəfər doğma yurdunda ilk dəfə səs verəcək. Bu gün keçirilən növbədənkənar prezident seçkilərində səsvermə prosesi işğaldan azad olunan Füzuli şəhərində 3 məntəqədə baş tutacaq. 84 saylı Füzuli seçki dairəsi üzrə 54 min 457 seçici qeydə alınıb. Onlardan 3619 nəfəri işğaldan azad olunan ərazilərdəki 75, 76 və 77 saylı seçki məntəqələrində səs verəcək. 77 saylı seçki məntəqəsində qeydə alınan 1292 nəfər Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkünlərdir. 75 saylı seçki məntəqəsində səs verəcək 1351 nəfər, 76 saylı seçki məntəqəsində isə 976 nəfər işğaldan azad olunan ərazilərdə çalışanlardır.

Dairə üzrə seçki prosesini izləyəcək 1020 müşahidəçi qeydə alınıb.

Prezident seçkiləri işğaldan azad edilmiş Kəlbəcərdə də ruh yüksəkliyi ilə keçiriləcək. 123 saylı Kəlbəcər Dairə Seçki Komissiyasının (DSK) sədri Adil Murtuzayev qeyd edib ki, dairənin 64 seçki məntəqəsindən ikisi ilk dəfədir Kəlbəcər ərazisində fəaliyyət göstərir. DSK sədri onu da nəzərə çatdırıb ki, 123 saylı dairə üzrə qeydiyyatda olan 55 min 572 seçicidən 5131 nəfəri prezident seçkilərində ilk dəfə səsvermə hüququndan istifadə edəcək.

122 saylı dairədə 15 məntəqə fəaliyyət göstərir. Onlardan 2-si Xankəndinin özündə, digər 13-ü isə respublikamızın digər bölgələrində yerləşir. Bütün məntəqələr, eləcə də Xankəndi şəhərindəki 14 və 15 saylı məntəqələrdə seçkilərin keçirilməsi üçün hər cür şərait yaradılıb, təminat və təchizatla bağlı məsələlər həll olunub.

Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan TÜRKPA nümayəndə heyəti ilə görüşündə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov müstəqil Azərbaycanın tarixində ilk dəfə ölkənin hər yerində seçkilər keçiriləcəyini vurğulayıb: "İşğaldan azad edilmiş ərazilərdə aparacağınız müşahidəçilik missiyası üçün sizə xüsusi təşəkkür edirəm. Qeyd edim ki, bu ərazilərdə 22 mindən çox seçicimiz 26 məntəqədə səs verəcək. Bundan əlavə, ölkə üzrə prezident seçkilərini izləmək üçün 89 min 366 yerli müşahidəçi qeydiyyatdan keçib".

TÜRKPA-nın Beynəlxalq Münasibətlər və hüquq komissiyasının sədri Osman Məstan bu qurumun üzv dövlətlərdə keçirilən seçkilərdə hər zaman müşahidəçi funksiyasını yerinə yetirdiyini diqqətə çatdırıb: "Biz həmçinin işğaldan azad edilən ərazilərdə müşahidələr aparacağıq və fevralın 8-i əldə etdiyimiz nəticələrlə bağlı mətbuat konfransı keçirəcəyik. Demokratik ölkə olan Azərbaycanda seçkilərin yüksək peşəkarlıqla və şəffaf keçiriləcəyinə inanırıq. Bizə yaratdığınız hər cür şəraitə görə təşəkkür edirik. Azərbaycan xalqına və bütün tütk dünyasına xeyrli olsun".

Prezident seçkilərini izləmək üçün Türk Dövlətləri Təşkilatının (TDT) Beynəlxalq Seçki Müşahidə Missiyası (BSMM) da ölkəmizdə fəaliyyətdədir.

TDT-nin baş katibi, səfir Kubanıçbek Ömuralıyevin rəhbərlik etdiyi missiyaya qurumun katibliyinin rəsmiləri, üzv dövlətlərin mərkəzi seçki komissiyalarının nümayəndələri və TDT ölkələrinin mütəxəssisləri daxildir. TDT-nin müşahidəçiləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də seçkiləri izləyəcəklər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## İmperializmin köləsi

**"Fəaliyyətini "demokratik təməllər" üzərində quran Qərbin bir çox media orqanı kimi, "Azadlıq" radiosu da bir neçə gün öncə yayımladığı muzdlu "reportajı" ilə sübut etdi ki, bu struktur üçün mənəviyyat və peşəkar dəyərlər önəmli deyil. Daha dəqiq desək, sağlam jurnalistika üçün hansı qaydanın qəbul edildiyinin və hansının qəbul edilmədiyinin "Azadlıq" radiosu üçün önəmi yoxdur. Bu media qurumu üçün əsas olan neoimperializmin maraqlarının icrasıdır".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Vətən müharibəsində və antiterror tədbirlərində şanlı qələbəsi, işğala və separatizmə son qoyması ilə Azərbaycan regionda yeni reallıq yaratdı: "Regionda münaqişə, işğal və separatizm üzərindən təsir rıçaqları formalaşdırmış və bərabərhüquqlu tərəfdaşlıqda maraqlı olmayan Qərb üçün isə bu situasiya əlverişli hesab edilmir. "Parçala və hökm sür" təfəkkürü ilə hərəkət edən Qərb dairələri üçün Cənubi Qafqazda sülh və əməkdaşlıq mühiti arzuolunmazdır. Təsadüfi deyil ki, Azərbaycan və Ermənistan arasında birbaşa təmaslar nəticəsində sülh üçün lazımi şərait formalaşdığı bir vaxtda Qərb erməni maraqlarının "müdafiəçisi" qismində çıxış edir. Ona görə də Bakı ilə İrəvan arasında yekun sülhə əngəl olmaq üçün köhnə qitə əlindən gələni edir".

Deputat qeyd edib ki, xüsusən Fransa və ABŞ-nin hərəkətverici qüvvə kimi çıxış etdiyi bu prosesdə Avropa İttifaqı, Avropa Parlamenti və Avropa Şurasının təsisatları kimi beynəlxalq və regional təşkilatlar, o cümlədən USAID, "Human rights watch", "Amnesty international" kimi "ixtisaslaşmış" təsisatlar, eləcə də bəzi media strukturları çirkin alətə çevriliblər. O cümlədən "Azadlıq" radiosu da adının əksinə imperializmin satılıq köləsi olduğunu dəfələrlə nümayiş etdirib.

Bəhruz Məhərrəmov vurğulayıb ki, ölkəmizdə heç vaxt Qərb təsisatlarının, onların mexanizm və alətlərinin regionda qeyri-adekvat niyyətlər naminə hərəkət etmək imkanı olmayacaq. Ona görə də Qərb media çirkabı, o cümlədən də "Azadlıq" radiosu fevralın 7-nə təyin olunmuş prezident seçkilərindən öncə ölkəmizə qarşı böhtan və dezinformasiya kampaniyasına start verib.

"Bu gün müasir jurnalistikanın qızıl qaydalarından biri dəqiqlikdir. Yəni media orqanları yaydıqları məlumatların düzgün olması üçün bütün səylərini göstərməli, öz məqsədli fikir və fərziyyələrini faktiki məlumat kimi təqdim etməkdən çəkinməli, faktları təhrif etməməlidir. Lakin "Azadlıq" radiosunda yayımlanan süjetin ilk saniyələrindən spekulyasiyalar aydın formada seçilir, yersiz və aidiyyətsiz çıxarışlar edilərək saxtakarlığa yol verilir. Azərbaycanın tarixboyu qazandığı ən böyük qələbələr kölgədə saxlanılaraq, ümumiyyətlə, bu istiqamətdə bir kəlmə də olsun danışılmır", - deyə müsahibimiz söyləyib.

Deputatın dediklərinə görə, ötən ilin sonunda casus şəbəkəsinin, ölkə daxilində media və QHT strukturlarında təmsil olunan beşinci kolonun hüququn aliliyi çərçivəsində ifşa edilməsindən sonra çarəsiz qalan Qərb dairələri Azərbaycana təzyiq göstərmək üçün çıxış yolunu bu cür ucuz media kampaniyalarında görürlər. Lakin elə "Azadlıq" media qurumunun materialları timsalında onların aidiyyəti olmayan mövzuların sintezi və tamamilə saxta olduğu aydın şəkildə bilinir. Əslində isə hər hansı media orqanı dürüst və qərəzsiz olmağa, neytral və düzgün şəkildə davranmağa, faktları ən azı iki müstəqil mənbə ilə yoxlamağa, tənqidin obyektinə şərhini bildirməyə imkan yaratmağa - cavab vermə hüququna hörmətlə yanaşmağa, həqiqətlər fonunda təcili təyin edilmiş formada düzəliş dərc etməyə, yaxud yayımlamağa borcludur. Amma "Azadlıq" radiosu nə qədər qərəzli və ləyaqətsiz yol tutmuş bir böhtan maşını olduğunu bütün dünya qarşısında nümayiş etdirdi.

"Azərbaycan xalqı da yaxşı bilir ki, "Azadlıq" radiosu kimi çirkab yuvasını ölkəmizin sosial-iqtisadi inkişafı və insanların rifahı maraqlandırmır. İşğal dövründə, Vətən müharibəsində və antiterror tədbirlərində əks cəbhədə yer tutmuş bir təbliğat maşını ölkəmizin tərəqqisində maraqlı ola bilməz. "Azadlıq" radiosu kimi iyrənc təsisatların yeganə məqsədi çaşdırıcı məlumatlarla Azərbaycan xalqı üçün yeni dönəmin başlanğıcı olan prezident seçkilərində təxribatlara yol açmaq, dolayısı ilə milli iradənin hakimiyyətdə təmsil edilməsinə əngəl törətməkdir. Lakin belə ucuz cəhdlərlə Qərbin regiona təsir imkanı yoxdur. Sabitliyi pozmağa yönəlmiş istənilən daxili və xarici təhdid yerindəcə elə bu xalqın özü tərəfindən boğulacaq", - deyə Bəhruz Məhərrəmov bildirib.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## "Azadlıq" Azərbaycanın uğurlarını niyə azaldır?

**Azərbaycanın qazandığı böyük Zəfər, bunun ardınca vüsət alan genişmiqyaslı bərpa-quruculuq işləri, təzədən tikilən kənd və şəhərlərə keçmiş məcburi köçkünlərin başlanan qayıdışı... Hələ digər nailiyyətlərimiz, Avropanın enerji xəritəsini dəyişdirən, ölkəmizi dünyanın nəqliyyat qovşağına çevirən qlobal layihələrimiz... Bütün bunları gözügötürməyənlər çoxdur.**




Qərb və dünyanın digər yerlərindəki bəzi ölkələr Azərbaycanı böhtanlamağa, şərləməyə can atırlar. Uğurlarımıza kölgə salmaq, aranı qızışdırmaq, bölgədə daim münaqişələr yaratmaq istəyirlər. İndi də başqa bir "oyun"a əl atıblar. Rəqəmləri işə salıblar. Çirkin kampaniyalarını onların vasitəsilə davam etdirməyə rəvac veriblər. Əslində, rəqəmləri də şərləməyə başlayıblar. Amma fakt faktdır, rəqəm də rəqəmdir, onları nə qədər fırlatsan da, dəyişmək, öz xeyrinə, başqasının ziyanına işlətmək mümkün deyil. "Azadlıq" radiosu və ona istinad edən "Azadlıq" qəzeti bunu bilməli idilər. Bilsəydilər, Cənubi Qafqaz ölkələrində büdcə xərclərinin vəziyyətinə dair yaydıqları məlumatda iddia etməzdilər ki, Azərbaycan bölgə ölkələri içərisində adambaşına düşən büdcə xərclərinə görə sonuncudur.

Sözügedən materiallarda 2024-cü ildə Azərbaycanın dövlət büdcəsinin xərclərinin 21,6 milyard, Gürcüstanda büdcə xərclərinin 9,1 milyard, Ermənistanda isə 7,9 milyard dollar olmasının proqnozlaşdırıldığı bildirilir. Guya adambaşına düşən büdcə xərclərində Azərbaycan 3-cü yerdədir.

"Faktyoxla Lab." bu iddiaları araşdırıb və həmin araşdırmanın nəticələri deyilənlərin tamamilə yanlış olduğunu göstərir. İlk növbədə büdcə xərclərinin hər nəfərə düşən həcmi, həmin xərclərin sosial yükü və digər məqamların uzlaşdırılmasına nəzər yetirək. Mənbəyə görə, bu il Ermənistanın dövlət büdcəsinin gəlirləri 2 trilyon 566 milyard dram (6,7 milyard dollar), xərcləri 3 trilyon 17 milyard (7,8 milyard dollar) proqnozlaşdırılıb. Yəni 3 milyon nəfər əhali üzrə hərəyə düşən gəlirlər 2,2 min, xərclər 2,6 min dollara yaxındır.

Qeyd etmək lazımdır ki, Ermənistanda büdcədə adambaşına düşən gəlir və xərclər arasındakı 400 dollar fərq var və həmin vəsait yerli milli məhsul deyil, xarici ianə və yardım, borcdur.

Cənubi Qafqazın digər ölkəsi - Gürcüstanda bu il üzrə proqnozlaşdırılan büdcənin gəlir və xərcləri 24,5 milyard lari təşkil edəcək. Bir gürcü larisinin 0,36-0,37 dollara bərabər olduğu nəzərə alınsa, bu, dollar ilə ekvivalentində təxminən 8,5 milyard dollara bərabərdir, yəni "Azadlıq" radiosunun iddia etdiyi kimi, 9,1 milyard dollar deyil. Əhalisinin sayı 3,9 milyon nəfərə yaxın olan Gürcüstanda adambaşına düşən büdcə xərci isə 2 160-2170 dollar təşkil edir. Beləlikə, "2435 dollar" rəqəmi də səhvdir.

Azərbaycanda isə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36,8 milyard manata və ya 21,7 milyard dollara bərabərdir. Adambaşına düşən büdcə xərcləri 2165-2170 dollardır və Gürcüstanda olduğundan az deyil.

Cari il üzrə Cənubi Qafqazın üç ölkəsinin birlikdə büdcə xərcləri 38 milyard dollar təşkil edir. Bunun 22 milyard dolları və ya 60 faizi Azərbaycanın, qalan 40 faizi digər 2 ölkənin payına düşür. Bu isə bölgədəki iqtisadi-fiskal mənbələrin əsas mərkəzi kimi Azərbaycanın xüsusi üstün paya malik olduğunu göstərir.

Büdcə xərclərinin hər nəfərə düşən xərcinə əhalinin sayının təsir etdiyi də danılmaz faktdır. İki qonşu respublikanın birlikdə əhalisi 6,8 milyon nəfərdir, yəni ümumilikdə Azərbaycan əhalisindən 3,3 milyon nəfər azdır. Beləliklə, Ermənistanda və ya Gürcüstanda əhalinin sayı Azərbaycandakı kimi 10 milyon nəfər olsaydı, onda bu ölkələrdə adambaşına düşən büdcə xərcləri 600 dollardan da aşağı olardı.

Azərbaycan həm büdcə xərclərinin ümumi həcminə, həm də adambaşına düşən məbləğinə görə, Ermənistan və Gürcüstandan irəlidədir. Büdcə xərclərinin formalaşması ilk növbədə maliyyə-fiskal mənbələrə, yəni yığım gəlirlərinə əsaslanır. İqtisadiyyatı güclü və dayanıqlı olan ölkələrdə büdcə gəlirləri həmin ölkənin birbaşa yerli yığım resurslarına söykənir. İqtisadiyyatı asılı və zəif olan dövlətlərin büdcəsi isə xarici faktorlara - beynəlxalq təşkilatların kreditlərinə, xarici fondların ianə və qrantlarına, borc vəsaitlərinə əsaslanır.

Azərbaycanın dövlət büdcəsinin gəlirlərinin birbaşa yerli fiskal mənbələr, yəni 100 faiz vergi, gömrük və s. daxili mənbələr hesabına formalaşdığı hamıya məlumdur. Büdcəmizin gəlirlərinin 17 milyard manatı vergi, gömrük rüsumları, özəlləşdirmədən daxilolmalar, büdcədənkənar fondların yığımları, 17,1 milyard manatı Dövlət Neft Fondunun transfertləri hesabına formalaşacaq. Xaricdən bir manat belə qrant, maliyyə institutlarından borc və s. yoxdur. Gürcüstan və Ermənistanın isə dövlət büdcəsinin təxminən 20-25 faizi xarici maliyyə qaynaqları və ya xarici borc hesabına təmin edilir. Bunu təsdiq edən çoxsaylı fakt və rəqəmlər mövcuddur.

Ümumiyyətlə, bu gün Ermənistanın borcunun dövlət büdcəsinin 180 faizinə bərabər olduğu, o ölkədə adambaşına düşən borcun həcmi 5 min dollar təşkil etdiyi və bunun da hər nəfərə düşən büdcə xərcindən 2 dəfə çox olduğu halda kim və hansı yaxşı vəziyyətdən yaza bilər?! Bir sözlə, bu ölkə defolt həddini çoxdan keçib. Düşdüyü vəziyyətdən çıxmaq üçün yol da tapa bilmir.

Büdcə siyasətində adambaşına düşən büdcə xərclərinin həcmi ilə yanaşı, sosial-iqtisadi təyinatı da rol oynayır. Gürcüstanda sosialyönlü proqramların maliyyələşdirilməsinə büdcə xərclərinin təxminən 36 faizi yönəldilir. Ermənistanda sosialyönlü xərclər ümumi büdcə xərclərinin 36,6 faizini təşkil edir. Azərbaycanda isə 2024-cü il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri ümumi büdcə xərclərinin 42 faizinə bərabərdir. Bunun nəticəsidir ki, ölkəmizdə pensiya, minimum əməkhaqqı, müavinət, təqaüd və digər sosial ödənişlərin məbləği Ermənistan və Gürcüstandan yüksəkdir.

Rəqəmlərin çox vaxt şərhə ehtiyacı olmur, çünki öz əvəzlərinə özləri danışır. Onları təhlil və şərh etməyin isə bir sıra şərtləri var - düzlük, dəqiqlik, qərəzsizlik, dərin riyazi və iqtisadi biliklər…Yoxsa çox səhv buraxmaq olar. "Azadlıq" radiosu kimi…

*Flora SADIQLI, "Azərbaycan"*

## Azərbaycan heç nə itirmədi

### AŞPA ölkəmizə qarşı haqsız davranışı ilə özünü gözdən saldı

**"Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olub. Bununla başına gətirilən müsibətləri Avropa Şurasına çatdıracağına, Azərbaycanın haqq işi ilə bağlı çox mötəbər qərarlar qəbul ediləcəyinə inanırdı. Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, bir milyon qaçqın və məcburi köçkününün ağır həyat şəraitində yaşadığını, zülm və əzab-əziyyətlərini Avropaya çatdırmaq istəyirdi. Amma təəssüflər olsun ki, 2001-ci ildən 2023-cü ilə qədər Azərbaycan Avropa Şurasından həqiqət deyilən bir şey görmədi..."**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Onun fikrincə, bu illər ərzində hər dəfə Avropa Şurasının rəhbərliyi iddia edirdi ki, nüfuzlu təşkilatın görəvi insan haqları, hüquqları ilə bağlı qanun qəbul etmək, tövsiyələr verməkdir. Guya bir dövlət başqa bir dövlətin ərazisini işğal edibsə, onunla bağlı heç nə edə bilməz: "Bu, Avropanın başqa təşkilatlarının işidir. Nəhayət, 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycan Ermənistan ordusunu darmadağın edərək Qarabağın əsas hissəsini, o cümlədən Şuşanı işğaldan azad etdi. Onda Avropa Şurasında ilk dəfə olaraq təlatüm yarandı, yəni bu qurumun ağlına gəlmirdi ki, bir gün Azərbaycan işğalçı Ermənistanı darmadağın edəcək. Təbii ki, bu vaxt Fransa və başqa dövlətlər eybəcər sifətlərini göstərdilər. Azərbaycana olan düşmən münasibətlərini açıq-aydın ortaya qoydular".

Deputat qeyd edib ki, 2023-cü ilin sentyabrında antiterror tədbirləri ilə Qarabağ torpaqları erməni separatçı qüvvələrindən təmizlənəndən sonra Avropa Şurası ölkəmizə qarşı böhtanlar atmağa başladı: "Azərbaycanı "etnik təmizləmə" aparmaqda, ermənilərə qarşı "soyqırımı" törətməkdə ittiham etməyə cəhd göstərdilər. Sonuncu böhtan fevralın 7-də ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkilərinə çağırılmamaları ilə bağlı oldu. Bu, Avropa Şurasının Azərbaycanla bağlı qərəzindən başqa bir şey deyildi. Böhtan yağdıranlar siyahısında Fransa, Almaniya, Niderland kimi ölkələr də var. Bu dövlətlərin bütün dedikləri əhəmiyyətsiz fikirlərdir".

A.İsgəndərov vurğulayıb ki, bu iddiaların heç birinin əsası yoxdur. Müstəqil dövlət ərazisində hər hansı bir seçki keçirirsə, müşahidə üçün kimlərin gələ biləcəyini özü müəyyən edir. Həmçinin ermənilərin Azərbaycan torpaqlarından çıxması gün kimi hamıya aydındır. Onların getməsinin hər saatı kameralara çəkilib, özləri də bildiriblər ki, zorla qovulmayıblar. Təbii ki, bütün bunlar Avropanın mənasız iddiasıdır. Avropanın hər zaman Azərbaycana yuxarıdan aşağı baxdığını vurğulayan deputat deyib ki, Qərbin dostu, qardaşı, hətta özündən də çox sevdiyi erməni olub. Qoy sevsinlər, ancaq Azərbaycanın haqqını danmaq, ölkəmizə böhtanlar atmaq Avropaya yaraşmır və AŞPA-nı nüfuzdan salır. Azərbaycan heç nə itirmir, ən pis, gülünc vəziyyətdə qalanlar AŞPA-da ölkəmizə qarşı böhtan atanlardır.

Azərbaycan etiraz əlaməti olaraq bu qurumda fəaliyyətini dayandırdı, ölkəmiz bu gün də demokratik yolla inkişaf edir, haqqı müdafiə edir. Azərbaycanın ən böyük arzusu və istəyi Qarabağı cənnətə çevirməkdir. Otuz il ərzində erməni daşnak qüvvələri şəhərləri, kəndləri xarabazarlığa çeviriblər. Bu gün dövlətimiz həmin şəhərləri, kəndləri yenidən qurur.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Adı "Azadlıq" olsa da, kölə fəaliyyəti göstərir

### Antiazərbaycançı qüvvələrin tapşırıqlarını həyata keçirən radiostansiya ölkəmizə qarşı düşmənçilik kampaniyası aparır

Müstəqil, azad siyasət yürüdən ölkələrə, xalqlara qənim kəsilən "Azadlıq" radiostansiyası antiazərbaycançı qüvvələrin meydan suladığı platformaya çevrilib. Qərəzsizlik və obyektivlik kimi jurnalistikanın əsas meyarlarını ayaqlar altına atan bu "media orqanı" Azərbaycana qarşı açıq-aşkar düşmənçilik kampaniyası aparır, başdan-başa yalan, iftira, həqiqəti əks etdirməyən "süjetlər" hazırlayır, "rəy sorğuları" keçirir, "araşdırmalar" aparır.

Ölkəmizi beynəlxalq nüfuzdan salmaq, onun imicinə zərbə vurmaq üçün qərəzli Qərb təsisatlarından - yəni ağalarından aldığı tapşırıqları yerinə yetirir.

Adı azadlıq, amma özü azad olmayan bu radiostansiyanın antiazərbaycançı şəbəkədən aldığı son tapşırığı isə ölkəmizdə keçirilən prezident seçkilərinə kölgə salmaqdan ibarətdir. Buna görə də xüsusilə bu ərəfədə daha da aktivlik göstərərək, bir-birinin ardınca faktları təhrif edən, Cənubi Qafqazdakı reallıqları əks etdirməyən yalan və böhtan üzərində qurulmuş verilişlərini işə salıb.

### Bu radio qarayaxma kampaniyası aparır

Öz gücünə suverenliyini, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycana qarşı çirkin vasitələrlə təsir göstərmək istəyən bəzi Qərb ölkələrinin və qurumlarının mənfur əməllərinə media resurslarını qoşmaları birinci dəfə deyil. Həmin media qurumları arasında yer alan "Azadlıq" radiosu hələ 44 günlük Vətən müharibəsi dövründə, eləcə də 23 saatlıq antiterror tədbirləri zamanı da yalnız Azərbaycanı ittiham etməklə məşğul olur, baş verənləri tamamilə yanlış şəkildə çatdırırdı. Radiostansiyada Azərbaycanın torpaqlarını 30 illik erməni işğalından azad etməsi, bayrağını bütün sərhədboyu dalğalandırması, Qarabağda separatizmin kökünü kəsərək suverenliyini tam təmin etməsi tamamilə yanlış yöndə qələmə verilirdi. Sanki Azərbaycan işğala məruz qalmamış, yüz minlərlə azərbaycanlı yurdundan didərgin salınmamışdı...

Bir sözlə, bütün dövrlərdə erməni lobbisinin maraqlarını güdən, onun ağzı ilə danışan "Azadlıq" radiosu hazırda da böhtan xarakterli, həqiqəti əks etdirməyən informasiyalar paylaşaraq Azərbaycana qarşı qarayaxma kampaniyası aparır.

Elə bu "media resursu"nun son günlər apardığı "iqtisadi araşdırmalar"a, keçirdiyi "rəy sorğuları"na diqqət etdikdə də aydın görünür ki, radio Azərbaycanla bağlı feyk xəbərlər yaymaqla məşğuldur.

### Qeyri-dəqiq və yanlış müqayisə

Məsələn, radio Cənubi Qafqaz ölkələrində büdcə xərclərinin vəziyyətinə dair yaydığı məlumatda Azərbaycanla bağlı qeyri-dəqiq və yanlış müqayisə aparıb ki, onlar qətiyyən həqiqəti əks etdirmir.

Radio Cənubi Qafqaz ölkələrində büdcə xərclərinin vəziyyətinə dair yaydığı məlumatda iddia edir ki, guya Azərbaycan bölgə ölkələri içərisində adambaşına düşən büdcə xərclərinə görə sonuncudur.

Ümumiyyətlə, Ermənistanın bütün sahələrdə, o cümlədən sosial-iqtisadi sahədə böhran yaşadığı hər kəsə bəllidir. Gürcüstanın da bütün göstəricilərə görə Azərbaycandan çox geridə olması danılmaz faktdır. Bu baxımdan həmin iki ölkənin iqtisadi cəhətdən Azərbaycandan irəlidə olmasını iddia etmək, sadəcə, gülüş doğurur.

"Azadlıq" radiosu Qərbdən aldığı tapşırığa əsasən, bütün çirkin yollarla, böhtan, yalan və iftiralarla Azərbaycanı sonuncu kimi göstərmək istəyir, amma beynəlxalq reytinq təşkilatlarının hazırladıqları illik hesabatlarda da əksini tapıb ki, Azərbaycan ən islahatçı ölkə kimi ilk onluqda yer alıb. Yəni görünən kəndə bələdçi lazım deyil...

"Azadlıq" radiosu Azərbaycanda keçirilən prezident seçkiləri ərəfəsində ölkəmizlə bağlı xeyli sayda uydurma, iftira dolu məlumatlar yaydı, heç bir sosioloji normalara uyğun olmayan "sorğular" keçirdi və yalnız feyk məlumatlar yaymaqla məşğul oldu və bununla da ölkəmizə qarşı qərəzini bir daha nümayiş etdirdi.

Ancaq Qalib Azərbaycanı milli mənafeyinin təminindən heç zaman döndərə bilməyən qərəzli xarici ölkə və təşkilatlar, onlara alət olan "Azadlıq" kimi media qurumları da yaxşı bilirlər ki, ölkəmizin uğurlarına yalan və iftiraları ilə heç zaman kölgə sala bilməyəcəklər.

Azərbaycan bütün parametrlər üzrə Cənubi Qafqazın lider ölkəsidir və milli maraqlarını təhdid edən bütün güclərə qarşı layiqli mübarizə aparmaq qüdrətindədir. Buna görə də yaxşı olar ki, "Azadlıq" radiosu Qərb ağalarına güvənərək ölkəmizə qarşı iftiralardan, feyk xəbərlərdən ibarət biabırçı verilişlərini, qul fəaliyyətini dayandırsın...

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

**Regional dövlət tibb müəssisələri arasında ilk dəfə olaraq Angioqrafiya və Ürək-damar cərrahiyyəsi şöbələri məhz bu xəstəxanada yaradılıb. Artıq bir ilə yaxındır ki, burada ən ağır ürək-damar xəstəliklərinin müalicəsi, aorto-koronar şuntlama əməliyyatı, anadangəlmə ürək qüsurlarının aradan qaldırılması əməliyyatlarının aparılması mümkündür.**

**Lənkəran Rayon Mərkəzi Xəstəxanasından bəhs edirik. Regionun aparıcı tibb müəssisələrindən olan bu xəstəxana hər zaman tibbi xidmətlərinin keyfiyyətinə və sayına görə fərqlənib. Ötən ilin fevralından isə burada "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi" çərçivəsində bütün kardioloji xidmətlər, o cümlədən ürək əməliyyatları həyata keçirilir.**





# Ürək əməliyyatı üçün Lənkərandan Bakıya gəlməyə ehtiyac yoxdur

### Rayonun mərkəzi xəstəxanasında göstərilən bu tibbi xidmət icbari sığorta çərçivəsində cənub zonasının bütün sakinləri üçün əlçatandır





### 250 min nəfərdən çox vətəndaşa xidmət edən tibb müəssisəsi

Lənkərana gəlişimiz qarlı-şaxtalı havaya təsadüf etsə də, rayon mərkəzi xəstəxanası adi gündəlik rejimdə fəaliyyətini davam etdirirdi. Yolların buz bağlamasını nəzərə alaraq öncə xəstəxananın Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin işi ilə maraqlandıq. Şöbənin müdiri Elgiz Baxşəliyevin sözlərinə görə, gün ərzində onlara orta hesabla 60-70 nəfər pasiyent müraciət edir: "Ümumiyyətlə, şöbədə ilkin tibbi yardımın həyata keçirilməsi üçün bütün imkanlar var. Hələ bir neçə il əvvəl xəstəxana əsaslı şəkildə təmir olunanda təcili yardım şöbəsi də ən müasir avadanlıqlarla təchiz edilib. Şöbədəki bütün tibbi xidmətlər icbari tibbi sığortanın xidmətlər zərfinə daxildir".

Şöbədə həkimlər sol bud sümüyünün sınığı ilə müraciət edən Vidadi Fərzullayevin ayaq nahiyəsinə gips qoyurdular.

Öyrənirik ki, regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında müəyyən olunmuş tədbirlərə müvafiq olaraq bu tibb müəssisəsində əsaslı təmir işləri həyata keçirilmişdir. Ümumi ərazisi 5 hektar olan xəstəxananın yenidən qurulmasına 2012-ci ilin avqustunda başlanılmış və bu ilin avqustunda başa çatdırılmışdır. Bu məqsədlə 2012-ci ildə 3 milyon manat, 2013-cü ildə 8 milyon manat vəsait ayrılmışdır. Təmir işləri çərçivəsində 1983-cü ildə inşa edilmiş 360 çarpayılıq tibb ocağının bütün korpus və binaları tamamilə yenidən qurulmuş, infrastrukturu yenilənmişdir. Hələ o vaxtdan bu tibb müəssisəsi möhtəşəmliyi və xidmətlərinin müxtəlifliyi ilə fərqlənirdi. Poliklinika, radiologiya, fizioterapiya, cərrahiyyə, urologiya, reanimasiya, təcili yardım, terapiya, uşaq, laboratoriya, yoluxucu xəstəliklər, vərəm, hemodializ şöbələrində göstərilən tibbi xidmətlər kefiyyətinə görə heç bir xəstəxanadan geri qalmırdı.

1894 nəfər əməkdaşı olan xəstəxana 250 min nəfərdən çox vətəndaşa xidmət edir. Onun tabeliyində həmçinin 2 şəhər ailə sağlamlıq mərkəzi, 5 kənd ailə sağlamlıq mərkəzi, 30 kənd həkim məntəqəsi, 34 kənd tibb məntəqəsi və Regional Perinatal Mərkəz fəaliyyət göstərir.

### İcbari tibbi sığortanın üstünlüklərindən hər kəs məmnun idi

Qeyd etdiyimiz kimi, Lənkəran Rayon Mərkəzi Xəstəxanası tamamilə icbati tibbi sığorta əsasında fəaliyyət göstərir. İcbari tibbi sığorta tibbi xidmətlərin vətəndaş tərəfindən tam ödənişsiz əldə olunması üçün tətbiq olunan sistemdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqi hazırda təmin edilir. Məqsəd tibbi xidmətləri vətəndaşlar üçün əlçatan etmək, əhalini sağlamlığı ilə bağlı maliyyə risklərindən qorumaq və səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla təmin etməkdir. Ona görə bu, tibb sektorunun yeni maliyyələşmə metodudur. İcbari tibbi sığorta həm də səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsinə zəmin yaradır.

Xəstəxana fəaliyyətini icbari tibbi sığorta sisteminin tələblərinə tam uyğunlaşdırıb. Belə ki, icbari tibbi sığorta sisteminin tətbiqindən sonra tibb müəssisəsinin strukturunda, idarəetmə aparatında dəyişikliklər edilib, Sığortanın təşkili və innovasiya, İnformasiya Texnologiyaları, Dəstək xidmətləri, Xəstə xidmətləri şöbələri yaradılıb və tibbi xidmətin əlçatanlığı təmin olunub.

Poliklinika şöhəsində müşahidələrimiz zamanı müraciət edən vətəndaşların zəruri prosedur qaydalardan və sənədləşmədən sonra müvafiq həkimlərin yanına və ya şöbələrə yönləndirildiklərini gördük. Əsas o idi ki, icbari tibbi sığortanın üstünlüklərindən hər kəs məmnun idi.



### 400 nəfərə yaxın pasiyentə ürək-damar stendi qoyulub

İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin sayı isə bir müddət əvvəl daha da artırılıb. Belə ki, "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə 775 sayda yeni tibbi xidmət əlavə edilib. Nəticədə xidmətlər zərfindəki tibbi xidmətlərin sayı 3315-ə çatdırılıb. Yeni xidmətlər sırasına vətər, əzələ köçürülməsi, sümük iliyi, böyrək və qaraciyər transplantasiyası əməliyyatları da əlavə olunub.

Bu barədə danışan xəstəxananın Angioqrafiya şöbəsinin müdiri, həkim-terapevt Vüsal Dənziyev deyir ki, invaziv radioloji tibbi xidmət də artıq xidmətlər zərfində yer alır. Onun rəhbərlik etdiyi şöbə isə ilk olaraq Lənkəranda yaradılıb. Vüsal Dənziyevin sözlərinə görə, şöbədə bütün invaziv radioloji tibbi xidmətlər tam həyata keçirilir: "Xəstəxananın bu şöbəsi ötən ilin fevral ayından fəaliyyət göstərir. Bir ilə yaxın müddətdə burada Lənkəran və ətraf rayonlardan 1300 nəfərə yaxın pasiyentə angioqrafiya xidmətləri göstərilib. Onlardan 400-ə yaxın pasiyentə ürək-damar stendi qoyulub".

Şöbə ən müasir invaziv radioloji tibbi xidmətlərin həyata keçirilməsinə, kardioloji xəstələrə tam və düzgün diaqnozun qoyulmasına imkan verən ən müasir diaqnostik avadanlıqlar, rəqəmsal angioqrafiya aparatı, süni tənəffüs aparatı, defibilyator, EXO cihazları ilə təmin edilib. Kadr potensialına gəldikdə isə, 2 invaziv-kardioloq, 4 orta tibb işçisi həftənin 7 günü, 27 saat növbəli şəkildə pasiyentlərin xidmətindədir.

### 55 açıq ürək əməliyyatı həyata keçirilib

Xəstəxanın yeni bölmələrindən biri də Ürək-damar cərrahiyyəsi şöbəsidir. Bu şöbənin də yaradılmasına Angioqrafiya şöbəsi ilə birlikdə başlanılıb və 2023-cü ilin fevralından fəaliyyət göstərir. Şöbənin müdiri, cərrah-uzman Yusif Abdulovla reanimasiya şöbəsindəki pasiyentin müayinəsindən sonra görüşdük. Vaxtilə xarici dövlətlərdə işləmiş Yusif Abdulovun sözlərinə görə, bu gün Azərbaycan səhiyyəsi elə bir inkişaf mərhələsinə çatıb ki, vaxtilə əlçatmaz görünən tibbi xidmətlər artıq reallığa çevrilir: "Lənkəran Rayon Mərkəzi Xəstəxanasında ürək-damar cərrahiyyəsinin həyata keçirilməsi imkanlarının yaradılması da Azərbaycanda səhiyyənin inkişafının göstəricisidir. Əvvəllər Lənkəran və digər rayonlardan olan vətəndaşlar ürək xəstəlikləri ilə bağlı adətən Bakıya gedirdilər. Ürək cərrahiyyəsinin Lənkəranda həyata keçirilməsi isə, ümumiyyətlə, xəyal kimi görünürdü. Lakin bu gün biz Lənkəranda açıq ürək əməliyyatı həyata keçiririk. O cümlədən bahalı olan ürək qapaqlarının dəyişdirilməsi əməliyyatı indi Lənkəranda mümkündür".

Xəstəxananın Ürək-damar cərrahiyyəsi şöbəsi 2 əməliyyat otağından, 16 çarpayılıq 7 palatadan və 5 çarpayılıq 1 reanimasiya otağından ibarətdir. Şöbə ən müasir havalandırma və istilik sistemləri ilə təmin edilib. İndiyədək burada icbari sığorta ilə 55 nəfərin açıq ürək əməliyyatı həyata keçirilib, 5 nəfərin isə ürək qapaqları dəyişdirilib.

Ürək-damar cərrahiyyəsi tibbin spesifik sahəsidir və əməliyyat zamanı həkimlərin təcrübəsi və peşəkarlığı xüsusi rol oynayır. Bu baxımdan Lənkəran Rayon Mərkəzi Xəstəxanasının Ürək-damar cərrahiyyəsi şöbəsinin fəaliyyəti əsl peşəkarlara həvalə olunduğundan indiyə kimi buradan narazı gedən olmayıb. Öyrənirik ki, Azərbaycan Tibb Univresitetini bitirən Yusif Abdulov ürək və damar cərrahiyyəsi üzrə uzmanlıq təhsilini Türkiyənin Ege Universitetinin Tibb fakültəsində alıb. 2012-2019-cu illərdə Türkiyədə çalışıb. 2019-2023-cü illərdə İraqın Kərbəla şəhərində Al-Kafeel Xəstəxanasında şöbə müdiri olub. 2023-cü ildən isə Lənkəranda mərkəzi rayon xəstəxanasının Ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri vəzifəsini icra edir. Onun köməkçisi Nesrin Hamzaoğlu isə Türkiyə vətəndaşıdır və bundan əvvəl Bağdat və Kərbəla şəhərlərində çalışıb. Şöbənin həkim komandasına həmçinin anestezioloq-reanimatoloq Nadir Təkləvi, türkiyəli həkim anestezioloq İrem Sezer daxildir. Ümumilikdə 3-ü əsas olmaqla 6 nəfərin çalışdığı şöbənin həkim komandası ürək-damar cərrahiyyəsi ilə bağlı ən ağır əməliyyatları belə uğurla həyata keçirir.

Əvvəllər Lənkəranda ürək-damar cərrahiyyəsi üçün vətəndaşlara müqavilələ tibb müəssisələrinə göndəriş verilirdi. Son bir ildə isə xəstəxanada barələrində bəhs etdiyimiz iki şöbənin fəaliyyətə başlamasından sonra vəziyyət tamamilə dəyişib. Əgər 2022-ci ildə Lənkəran Rayon Mərkəzi Xəstəxanasından invaziv radioloji xidmətlər - stend qoyulması, angioqrafiya müayinəsi üçün Bakı şəhərindəki və digər bölgələrdəki müqavilələ tibb müəssisələrinə 1749, o cümlədən 187 açıq ürək əməliyyatı üçün göndəriş verilmişdisə, artıq bütün bu tibbi xidmətlərin hamısı bu müəssisənin özündə həyata keçirilir. Həm də bu xidmətlər icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində göstərilir.

Ötən ilədək rayon mərkəzi xəstəxanalarında ürək-damar cərrahiyyəsi icra olunmurdu. Amma artıq bu proses başlayıb. Rayonun baş xəstəxanasından başlayan bu prosesin digər xəstəxanaları da əhatə edəcəyi şübhəsizdir.

Lənkəran Rayon Mərkəzi Xəstəxanasından xoş təəssüratlarla ayrıldıq. Burada bir daha ölkəmizdə səhiyyənin uğurlu inkişafının, icbari tibbi-sığorta sistemi kimi sosial standartların tətbiqinin insanlara bəxş etdiyi yüksək xoş ovqata şahidlik etdik. Eyni zamanda bir daha əmin olduq ki, hər bir vətəndaşımızın sağlamlığı etibarlı əllərdədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Lənkəran-Bakı*

# Yeni sərəncam 1,1 milyon pensiyaçını əhatə edir

### Ölkə üzrə orta aylıq pensiya 485 manat olacaq

**Dünyanın başı üzərində dolaşan inflyasiya və bahalaşma Azərbaycandan da yan keçmir, dolayısı ilə hər bir Azərbaycan vətəndaşına bu və ya digər dərəcədə təsir edir. Ona görə də ölkəmizdə həm əməkhaqlarında, həm də sosial təminat növləri üzrə ödənişlərdə artımlar olur.**













Məsələnin ən diqqətçəkən tərəfi odur ki, bu artımlar 44 günlük Vətən müharibəsindən zəfərlə çıxan ölkədə Böyük qayıdış proqramının reallaşdırıldığı bir dövrdə həyata keçirilir. Böyük qayıdışın icrası, sosial islahatların paralel aparılması o deməkdir ki, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının xoş güzəranı, rifahı və sosial müdafiəsinin gücləndirilməsi dayanır.

Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2024-cü il tarixli sərəncamı əhalinin həssas təbəqəsini təşkil edən 1,1 milyon pensiyaçının sosial müdafiəsinin gücləndirilməsinə və bu istiqamətdə əldə olunan uğurların davam etdirilməsinə yönəlib. Qeyd edək ki, sosial islahatların yeni mərhələsi 2018-ci ildən sonra başlayıb. Və o zaman dövlət başçısının "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" sözləri ötən beş ildə sosial islahatlarla bağlı imzalanan fərman və sərəncamların ana xəttini təşkil edir. Bu tezisi həm də gələcək proqramların, layihələrin anonsu kimi də qəbul etmək olar.

Xəbər verildiyi kimi, sözügedən son sərəncamla ölkəmizdə bütün növ pensiyalar indeksləşdirilib. Pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan növbəti addım olan bu sərəncamla 2024-cü il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2023-cü il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 11,2 faiz artırılıb.

Son dövrün göstəricilərinə nəzər salsaq, görərik ki, 2018-2023-cü illərdə əməkhaqqı, pensiya və sosial ödənişlərin artırılması məqsədilə 4 sosial islahat paketi icra olunub. 4 milyondan çox vətəndaşı əhatə edən bu islahatların icrasına lazım olan vəsaitin illik məbləği 7 milyard manata yaxındır. Həmin islahatlar nəticəsində minimum əməkhaqqı 2,7 dəfə (130 manatdan 345 manata), median əməkhaqqı 2,2 dəfə (486 manat), əməkhaqqı fondu 2,7 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın (illik 400 milyon manatdan 1,9 milyard manata), ünvanlı yardımın orta aylıq məbləği 2,8 dəfə (175 manatdan 487 manata), ehtiyac meyarı 2,3 dəfə (116 manatdan 270 manata), orta aylıq əməkhaqqı 71,3 faiz (545 manatdan 933,8 manata) artıb. Bu illər həmçinin 10 yeni sosial ödəniş növü təsis edilib.

Pensiya təminatına gəldikdə isə, öncə onu qeyd edək ki, 4 sosial islahat paketinin hər birində pensiyaların artırılması təmin edilib. Nəticədə 2018-2023-cü illərdə minimum pensiya 2,5 dəfə (110 manatdan 280 manata), orta aylıq pensiya 2,1 dəfə (208 manatdan 436 manata), yaşa görə orta aylıq pensiya 2 dəfə (234 manatdan 467 manata) çatıb. 2023-cü ildə pensiyaların orta aylıq məbləğində 19 faiz artım olub. Həmin il pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 16 faiz və ya 781 milyon manat çox olmaqla 5 milyard 726 milyon manat yönəldilib. Bu il isə ümumilikdə 1,1 milyon pensiyaçını əhatə edən artımlar üçün illik əlavə olaraq 630 milyon manat xərclənəcək. Məlumat üçün qeyd edək ki, 2024-cü il üzrə pensiyaların maliyyələşdirilməsi üçün "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanunla 6,5 milyard manat vəsait nəzərdə tutulub. Yeni sərəncamla pensiyaların indeksləşdirilərək artırılması nəticəsində orta aylıq pensiya məbləğinin 436 manatdan 485, yaşa görə orta aylıq pensiyanın məbləğinin 467 manatdan 519 manata çatacağı proqnozlaşdırılır.

İndeksləşdirilmə həmçinin pensiya kapitalına şamil olunur. Yəni bu il yanvarın 1-dək sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq 8,8 faiz indeksləşdirilərək artırılır. Məsələn, hansısa bir pensiyaçının fərdi hesabında 45 min manat pensiya kapitalı toplanıbsa, bu məbləğ 8,8 faiz, yəni 3960 manat artırılmaqla 48 960 manata çatdırılır. Bu da işləyən şəxslərin fərdi hesablarında toplanan pensiya kapitallarının yalnız hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları əsasında deyil, həm də hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilmə əsasında mütəmadi olaraq artırıldığını göstərir və sığortaolunanların sosial müdafiəsinə xidmət edir.

Beləliklə, deyə bilərik ki, hər il artırılan əməkhaqları, pensiyalar, sosial ödənişlər Azərbaycan vətəndaşlarının güzəranlarının daha da yaxşılaşmasına xidmət edir. Həm də onu deyə bilərik ki, əhalinin sosial müdafiəsinə hesablanmış bu artımlar dövlətin əsas məram və məqsədini göstərir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Türkiyənin Kahramanmaraş bölgəsində inşa olunan "Azərbaycan" yaşayış məhəlləsi 32 hektar sahəni əhatə edəcək

Ötən il fevralın 6-da Türkiyədə baş vermiş və on minlərlə insanın həyatına son qoymuş dəhşətli zəlzələ Türkiyəni olduğu kimi, Azərbaycanı da dərindən sarsıtdı.



Zəlzələ xəbərinin ilk dəqiqələrindən Azərbaycan xalqı və dövləti heç bir yardım çağırışını gözləmədən qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Azərbaycan hazırda Kahramanmaraş vilayətində humanitar fəaliyyətini davam etdirərək burada aparılan yenidənqurma və bərpa işlərində, sosial obyektlərin inşasında yaxından iştirak edir.

AZƏRTAC xəbər verir ki, Türkiyənin Kahramanmaraş vilayətində inşa olunan "Azərbaycan" yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektar təşkil edəcək. Layihəyə əsasən məhəllə yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. Yaşayış məhəlləsində 71 yaşayış binası inşa olunacaq. Bu binalarda ikiotaqlı, üçotaqlı və dördotaqlı 1323 mənzil olacaq. Eyni zamanda həmin ərazidə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə yaşayış binalarında 799 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək. Layihənin 100 milyon ABŞ dolları məbləğində hissəsi Azərbaycan hökuməti tərəfindən inşa olunacaq. Azərbaycan hökumətinin icraçı qurumu Mənzil İnşaatı Dövlət Agentliyidir.

Azərbaycan hökuməti tərəfindən "Azərbaycan" yaşayış məhəlləsində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzi inşa olunacaq.

Yaşayış məhəlləsində yerləşən ibtidai məktəb və uşaq bağçasının, baş plan üzrə 11-ci və 12-ci kvartalların tikintisinə başlanılıb. İki kvartalda hər biri dördmərtəbəli 16 yaşayış binası inşa ediləcək. Binalarda ümumilikdə 276 mənzil və 244 qeyri-yaşayış obyekti olacaq.

20 sinif otağından ibarət 300 şagird yerlik ibtidai məktəb və 3 sinif otağından ibarət 60 yerlik uşaq bağçasında təhsilə dəstək məqsədilə əlavə otaqlar - xüsusi alətlər və tədris materiallarından ibarət emalatxana, musiqi otağı, rəsm və əmək dərslərinin keçirilməsi üçün iki emalatxana, texnologiya, riyaziyyat və mühəndislik sahəsində bacarıqların təkmilləşdirilməsi üçün emalatxana, kitabxana və idman zalları yaradılacaq.

# ABŞ-nin Hadson İnstitutunda "Azərbaycan və qlobal enerji təhlükəsizliyi" mövzusunda müzakirələr aparılıb

Azərbaycan Respublikasının ABŞ-dəki səfirliyinin və Birləşmiş Ştatların nüfuzlu düşüncə mərkəzi Hadson İnstitutunun əməkdaşlığı ilə "Azərbaycan və qlobal enerji təhlükəsizliyi" mövzusunda panel iclası keçirilib.



Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə ABŞ-də fəaliyyət göstərən diplomatik korpus təmsilçiləri, enerji məsələləri üzrə ekspertlər və bu sahədə fəaliyyət göstərən düşüncə mərkəzlərinin nümayəndələri iştirak ediblər.

Panel iclasında Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim, energetika nazirinin müavini Elnur Soltanov, Hadson İnstitutunun Yaxın Şərqdə Sülh və Təhlükəsizlik Mərkəzinin baş elmi işçisi və direktoru Maykl Doran, həmçinin milli təhlükəsizlik və müdafiə, xarici siyasət üzrə baş elmi işçisi Lyuk Kofi çıxış ediblər.

Səfir X.İbrahim Azərbaycanın geostrateji əhəmiyyətinə diqqət çəkərək ölkəmizin enerji sektorunda vacib rol oynadığını qeyd edib.

E.Soltanov ölkəmizin enerji sektoru və ABŞ ilə əlaqələrinin tarixindən, Azərbaycanın XIX əsrdən etibarən bu sahədə dünya miqyasında rolundan bəhs edib. Nazir müavini xüsusilə müstəqilliyimizin bərpasından sonra ABŞ-nin ölkəmizin enerji sektorunun inkişafına verdiyi dəstəyi xatırladaraq bunun suverenliyimizin möhkəmlənməsinə töhfə verdiyini qeyd edib. Azərbaycanın enerji sektorunun neft və təbii qazdan sonra "yaşıl enerji" mərhələsinə keçdiyini bildirən E.Soltanov ölkəmizin Xəzər dənizində "yaşıl enerji" dəhlizi yaratmağı hədəflədiyini söyləyib. Azərbaycanın bu kontekstdə neft və təbii qaz layihələri üzrə əməkdaşlıq etdiyi şirkətlərlə yaratdığı etimad münasibətlərinin də əhəmiyyətli rol oynayacağı vurğulanıb. Bu xüsusda "Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun və Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsini nəzərdə tutan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in əhəmiyyəti xüsusi qeyd olunub. Nazir müavini Azərbaycanın enerji siyasətinin qonşularının enerji təhlükəsizliyinə töhfə verdiyini də qeyd edib.

M.Doran çıxışında Azərbaycan ilə əlaqələrin region ölkələri üçün həyati önəm daşıdığını vurğulayıb, ölkəmizin həmişə regional və qlobalmiqyaslı layihələrin təşəbbüskarı və icraçısı olduğunu bildirib.

L.Kofi bildirib ki, xüsusilə Ukraynadakı müharibədən sonra Avropa İttifaqı Azərbaycanla əməkdaşlığın qurulmasının vacibliyini daha çox dərk etməyə başlayıb. Onların təbii qazın "yaşıl enerji" kimi tanınmasını dəstəkləmələrinə və Azərbaycanın Avropaya təbii qaz ixracında önəmli roluna baxmayaraq, son zamanlar Azərbaycana qarşı ritorikasının dəyişməsinin müşahidə edildiyi bildirilib. Bununla yanaşı, Azərbaycan, Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılmasının baş tutmasının regionda iqtisadi inkişafa da ciddi töhfə verəcəyi, indiyədək bu bölgəyə gəlməmiş birbaşa xarici investisiyalar üçün münbit şərait yaradacağı vurğulanıb.

# Kìm günahkardır?

## Fransa istehsalat qəzalarının sayına görə Avropa rekordçusudur

Niyə Fransa istehsalat qəzalarının sayına görə Avropa İttifaqı ölkələri arasında liderdir ? Qurbanların və onların ailələrinin hüquqları uğrunda mübarizə aparan "Stop Deaths at Work" assosiasiyası ölkədə yaranmış acınacaqlı vəziyyətdən xilas yolları axtarır.



2021-ci ildə Klodin Düşenin əri Pyerrik Düşen Sen-Kolomban şəhərində işləyərkən avtomobilin altında qalaraq həyatını itirib. Bu, Miladdan sonra baş verib. Pyerrik məzuniyyətdə olub, lakin təcili olaraq işə çağırılıb və ondan texniki xidmət göstərməsini istəyiblər. O, evə qayıtmayıb...

Klodin qeyd edir ki, Fransada iş qəzalarından danışmaq adət deyil, amma hər gün iki nəfər bu şəkildə həlak olur.

"Görünməz qırğın" kitabının müəllifi Matyo Lepin beş ildir ki, bu mövzu üzərində işləyir. O, istehsalatda baş verən bədbəxt hadisələrin, ölümlərin qeydiyyatını aparır, sosial şəbəkələrdə bu mövzuda danışır. O, "Euronews" telekanalına müsahibəsində bildirir ki, Fransada əmək müfəttişlərinin sayı getdikcə azalır. Bu gün hər 10 min işçiyə cəmi bir müfəttiş düşür.

Fransanın şimalında əmək müfəttişi olan Remi Belluanın işi mağazalara, tikinti sahələrinə və şirkətlərə baş çəkmək, təhlükəsizlik qaydalarına əməl olunmasını yoxlamaqdır. Bellua hesab edir ki, səhlənkarlıq və pozuntulara görə cərimələr nisbətən kiçikdir. Belə ki, iş yerində ölümlə nəticələnən qəzanın "qiyməti" hər bir işçi üçün maksimum 10 min avro təşkil edir". Ekspertin dediyinə görə, iri şirkətlər üçün bu, cüzi məbləğdir.

Mets şəhərindən olan keçmiş kanat yolu operatoru Frederik Sulye də bu fikirdədir. O, təhlükəsizlik qaydalarına əməl etməməyin fəsadlarını öz gözləri ilə görüb - 2012-ci ildə şəkər anbarında işləyərkən iki həmkarının faciəli şəkildə ölümünün şahidi olub. Hələ də təzminat almamış Sulye deyir: "İşləyənlər bunu həyatlarını itirmək üçün deyil, pul qazanmaq üçün edirlər".

Sıx iş qrafikləri, adekvat sanksiyaların və nəzarətin olmaması qəzalara səbəb olur. Şübhəsiz ki, Fransanın iş yerində ölənlərin sayına görə Avropa rekordçusu olmasının bir çox səbəbi var. Bürokratik maşın ləng işləyir və ona görə də zərərçəkənlər, qurbanların ailələri ədaləti bərqərar etmək və iş yerlərində daha sərt nəzarətə nail olmaq üçün birləşmək qərarına gəliblər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
Əmək pensiyalarının indeksləşdirilməsi haqqında
Zəfər seçkisi milli və siyasi həmrəyliyin təntənəsidir
Qardaşlıq salnaməmizə əbədi həkk olunan səhifə
Prezident İlham Əliyevin yeni sərəncamı ilə bütün növ pensiyalar indeksləşdiriləcək 11,2 faiz artırıldı
Seçki bülletenlərinin məntəqə seçki komissiyalarına verilməsi başa çatdırılıb
AŞPA qərəzli mövqe tutub
Azərbaycan heç bir təşkilatın diktəsi ilə hərəkət etmir
AŞPA-nın məramı ilə əməlləri ziddiyyət təşkil edir
Seçicilərə məntəqə seçki komissiyası tərəfindən qeydiyyatdançıxma vəsiqəsinin verilməsi müddəti sona çatıb
Türkiyədə baş verən "əsrin fəlakəti"ndən bir il ötür
Dar gündə qardaş ölkəyə ən böyük dayaq Azərbaycan oldu
Avropanı etiraz dalğası bürüyür

# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansında olan "Akademik H.Əliyev" bərə gəmisinin MAN 6K45GFCA baş mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 fevral 2024-cü il Bakı vaxtilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan alternativ enerji mənbələrinə illik texniki xidmətlərin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 fevral 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Paşinyan hökuməti parçalanır

## Hayastanda daxili qarşıdurma ən yüksək həddə çatıb

Hayastanda sosial-iqtisadi vəziyyətin davamlı şəkildə ağırlaşması fonunda müşahidə olunan proseslərdən biri də ölkədə siyasi böhranın getdikcə dərinləşməsidir. Hayastanda hökumət daxilində qızğın mübarizə gedir. Belə ki, parlamentin spikeri Alen Simonyan, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və bəziləri özlərini Hayastanın hazırkı baş naziri Nikol Paşinyanın əvəzedicisi kimi təqdim etməyə başlayıblar.



"Joxovurd" qəzetinin iddiasına görə, birinci, Rusiyanın, ikincisi, Qərbin dəstəyi ilə ölkədə dəyişikliyə ümid edirlər: "Onlar bu tamaşalara o qədər ciddi yanaşdılar ki, pərdə arxasında bir-birlərinə iftira atmağa başladılar. Simonyan uzun müddət Paşinyanın gözündə Qriqoryanın rolunu aşağılamağa çalışıb. Sonuncu isə öz növbəsində hüquq-mühafizə orqanlarının əməkdaşlarının "Synergy" şirkətinin tenderlərində iştirak edən Simonyan ailəsinin izinə düşməsini təmin edib".

Bunların fonunda Hayastanda hakim "Mülki Müqavilə" Partiyasından olan deputatlar baş nazir Nikol Paşinyandan parlament sədri Alen Simonyanı istefaya göndərməyi tələb ediblər. Bildirilib ki, parlament sədrinin qardaşının həyat yoldaşının korrupsiya ilə bağlı qalmaqalı deputatların səbrini tükəndirib.

Qeyd edək ki, Ermənistan parlamentinin sədri Alen Simonyanın qardaşının həyat yoldaşı Ani Gevorkyan 2 ay müddətinə həbs olunub. O, vəzifə səlahiyyətlərindən sui-istifadəyə şərait yaratmaqda ittiham olunur. İstintaq iş üzrə ümumilikdə 7 nəfərin həbsi ilə bağlı məhkəməyə vəsatət verib.

Bu vəziyyətdə hakimiyyət daxilində çəkişmə də ölkə üçün əlavə problemlər yaradır. Erməni politoloqları hesab edirlər ki, yaxın vaxtlarda Hayastanın iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq. Çünki bir tərəfdən iqtidarda olan "Vətəndaş müqaviləsi" partiyasında vəzifələr uğrunda çəkişmələr güclənib, digər tərəfdən isə, Nikol Paşinyanın ətrafındakı insanların peşəkarlığına görə deyil, sadiqlik prinsipi üzrə seçilməsi ciddi fəsadlar yaradır.

Politoloq Manvel Levonisyan qeyd edir ki, Paşinyan hökumətinin daxilində çəkişmələr də getdikcə artır və bu da sərmayədarları ölkədən qaçırır. Erməni politoloq "məxməri inqilab"ın Hayastanda oliqarxların kənarlaşdırılması və bir adamın hakimiyyətinin bərqərar olması ilə nəticələndiyini bildirib. Onun sözlərinə görə, Paşinyanın özü də partiyasının heç bir ideoloji əsaslara söykənmədiyini etiraf edib. Bu isə, öz növbəsində, yüksək vəzifələrə təyinatların baş nazirə yaxınlıq prinsipi ilə həyata keçirilməsinə səbəb olur.

Hayastanın "Alternativ layihələr" qrupunun üzvü, erməni ekspert Vahe Hovhannisyan öz məqaləsində yazıb ki, Nikolun hakimiyyəti ilə erməni xalqının birlikdə yaşamaq imkanları tükənib. Bizim birgəyaşayış imkanımız yoxdur. O qeyd edib ki, Paşinyana öz övladının beşiyindən artıq dəyər verənlərin hamısı bunu anlamalı və qərar qəbul etməlidir: "Sadəcə, özünüzə bir sual verin. Niyə Nikolun təsəvvür etdiyi istiqlal və suverenlik həmişə müharibə, mühacirət və yas ilə müşayiət olunur? Nə üçün onun təsəvvür etdiyi suverenliyi həmişə təslim olmaqla bitir? Bu gün platformadan hansı çağırışlar ediləcəyini bilmirəm, amma dövlət sisteminə çox mühüm mesaj olmalıdır: istefalarınızla yeni müharibənin qarşısını alın, yeni fəlakətin həmmüəllifi olmayın. Hakimiyyət dəyişikliyi hamar, dinc, qansız olmalıdır. O, təhrik etməyə və kreslodan yapışmağa çalışacaq. Gəlin, onlara kömək edək ki, hər şey dinc olsun. Niyə bizə yeni hökumət lazımdır? Yeni müharibəyə və yeni torpaqdan məhrum olmaya yol verməmək üçün".

Göründüyü kimi, hakimiyyətin vətəndaşlar arasında heç bir dayağı qalmayıb. Paşinyanın istefasını tələb edənlərin sırası gündən-günə çoxalır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3923
Sifariş 280
Qiyməti 60 qəpik